11 oktyabr 2024 №76 (2141) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycan COP29 müddətində dünyaya atəşkəs çağırışı edir



İqlim dəyişmələri bütün dünyada insanların yaşayışına mənfi təsir göstərir və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində tərəqqiyə mane olur. Burada Azərbaycan da istisna deyil. Biz hər il çaylarımızda suyun səviyyəsinin azaldığını, Xəzər dənizinin isə səviyyəsinin aşağı düşdüyünü görürük. Azərbaycan su qıtlığı problemi ilə də üzləşir.

Bu sözlər Prezident İlham Əliyevin oktyabrın 10-da Bakıda işə başlayan Pre-COP29 konfransının iştirakçılarına müraciətində yer alıb.

Müraciətdə qeyd olunur ki, Azərbaycan bu təhdidlərin öhdəsindən gəlmək üçün cəsarətli addımlar atır. Biz milli səviyyədə "təmiz ətraf mühit və yaşıl artım" üzrə sosial-iqtisadi prioritetimizi uğurla reallaşdırırıq. Azərbaycan 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan edib.

Zəngin külək və günəş enerjisi potensialımız bizə bərpa olunan enerji gündəliyini inkişaf etdirməyə imkan verir. "Yaşıl enerji" zonaları elan edilmiş işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur kifayət qədər bərpa olunan enerji mənbələrinə malikdir.

Müraciətdə diqqətə çatdırılır ki, qlobal iqlim fəaliyyətinə dəstək vermək əzmimiz COP29-a ev sahibliyi etmək üçün namizədliyimizin irəli sürülməsinə gətirib çıxardı: "Biz fəxr edirik ki, Cənubi Qafqazda və daha geniş regionda ilk COP Azərbaycanda keçiriləcək".

Qeyd olunur ki, Azərbaycan sülh, maliyyə, insan kapitalı, su və bir sıra digər məsələləri ehtiva edən 14 təşəbbüsdən ibarət iddialı Fəaliyyət Gündəliyi hazırlayıb. Mövcud olan geosiyasi gərginlik fonunda "COP atəşkəsi çağırışı"nın aktuallığı daha da artır: "COP29-a hazırlığın son mərhələsinə qədəm qoyduğumuz bir vaxtda, mən sizi bəşəriyyət naminə konstruktiv şəkildə və xoş məramla əməkdaşlıq etməyə çağırıram. Dövlətlərin ümumi, lakin fərqli öhdəlikləri olsa da, onlar fikir ayrılıqlarını bir kənara qoymalı, bir-birini günahlandırmağı dayandırmalı və ortaq məxrəcə gəlməlidirlər".

Müraciətdə bəzi media qurumlarının Azərbaycanın imicini ləkələmək məqsədi daşıyan qarayaxma kampaniyasına da toxunulur. Qeyd olunur ki, bu cəhdlər əbəsdir və bizi iqlim dəyişmələrinin mənfi təsirləri ilə mübarizə aparmaq üçün nəcib missiyamızı həyata keçirməkdən çəkindirə bilməz.

Azərbaycan Prezidenti müraciətinin sonunda yaşıl dünya naminə həmrəylik ruhunda birgə fəaliyyət göstərmək üçün 12-13 noyabr tarixlərində Bakıda keçiriləcək Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitində dövlət və hökumət başçılarını salamlamağa şad olacağını vurğulayıb.

***

Qeyd edək ki, Heydər Əliyev Mərkəzində keçirilən Pre-COP29 konfransı "Ambisiyanı artırmaq və iqlim fəaliyyətinə təkan vermək" mövzusuna həsr olunub. Konfrans oktyabrın 11-də başa çatacaq.

## Şuşada İslam Dünyası İrs Komitəsinin sessiyası keçirilib

2024-cü ildə "İslam dünyasının mədəniyyət paytaxtı" missiyasını daşıyan Şuşa şəhəri 8-9 oktyabr tarixlərində İslam Dünyası İrs Komitəsinin 12-ci sessiyasına ev sahibliyi edib. Ölkəmizdən iki tarixi-mədəni məkan İslam Dünyası İrsinin İlkin Siyahısına salınıb.

səh. 2

## Daha bir kitab bayramı tarixə qovuşdu

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən X Bakı Beynəlxalq Kitab Sərgisi oktyabrın 8-də başa çatıb. Bakı Ekspo Mərkəzində 18 ölkədən 56 xarici təşkilat, 110 yerli nəşriyyat-poliqrafiya və kitab sənəti ilə əlaqəli müəssisənin iştirak etdiyi sərgi bu il daha zəngin proqramla kitabsevərlərin görüşünə gəlmişdi.

Bir həftə ərzində sərgi məkanında uşaqlar və böyüklər üçün ustad dərsləri, kitab təqdimatları, imza günləri, konfranslar, simpoziumlar, müsabiqələr, qiraət və musiqi saatları, imza mərasimləri – ümumilikdə 320-dən artıq tədbir keçirildi.

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı – ICESCO sərginin "fəxri qonaq qurum"u idi. Sərginin "fəxri qonaqları" irlandiyalı yazıçı Con Boyn, alman yazar Vulf Dorn və Azərbaycan əsilli İran yazıçısı Fəriba Vəfi ilə keçirilən görüşlər isə xüsusilə yaddaqalan oldu. Sərgi məkanında oxucuların, naşirlərin, müəlliflərin – bütün maraqlı tərəflərin rahatlığı üçün hər cür şərait yaradılmışdı.

mövzuya dair: səh. 7

## Mədəniyyətə əsaslanan iqlim fəaliyyəti

### UNESCO-da Azərbaycanın COP29-la bağlı təşəbbüsünə həsr edilmiş konfrans

Mədəni ölçüləri iqlimlə bağlı fəaliyyət strategiyasına inteqrasiya etməyə təcili ehtiyac olduğu bir vaxtda UNESCO və bu qurum yanında ölkəmizin Daimi Nümayəndəliyinin birgə təşkilatçılığı və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Mədəniyyətə əsaslanan iqlim fəaliyyəti" adlı konfrans keçirilib.




UNESCO-nun mənzil-qərargahında oktyabrın 8-də gerçəkləşən konfransda Azərbaycanın COP29-a sədrliyi çərçivəsində dünya ölkələrinin mədəniyyət nazirlərini bir araya gətirəcək "Mədəniyyətə əsaslanan iqlim fəaliyyəti" (C4C) təşəbbüsü təqdim olunub.

Konfransda Azərbaycan mədəniyyət nazirinin müavini Fərid Cəfərov, UNESCO baş direktorunun mədəniyyət üzrə müavini Ernesto Ottone, UNESCO-nun Ekologiya və Torpaq Elmləri Bölməsinin direktoru, İnsan və Biosfer Proqramının katibi Antonio Abrö (Antonio Abreu), beynəlxalq ekspert Martin Nyumən, təşkilata üzv dövlətlərin daimi nümayəndələri və aidiyyəti qurumların təmsilçiləri iştirak ediblər.

Ernesto Ottone və Antonio Abrö çıxış edərək COP29 Sədrliyinin bir hissəsi kimi mədəniyyətə əsaslanan iqlim fəaliyyəti üzrə belə bir təşəbbüsə görə Azərbaycana təşəkkürlərini bildiriblər.

davamı səh. 3-də

## Ankarada Füzuli simpoziumu




Dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 530 illiyi münasibətilə 9-10 oktyabr tarixlərində Ankaradakı Qazi Universitetində simpozium keçirilib.

Simpoziumun açılışında AMEA-nın prezidenti İsa Həbibbəyli, ölkəmizin tanınmış alimləri, Azərbaycanın Ankaradakı səfiri Rəşad Məmmədov, Türk Mədəniyyətinin Tədqiqi İnstitutunun direktoru Əhməd Bican Ercilasun, Əmrə Yunus İnstitutunun direktoru Abdurrahman Ali, Qazi Universitetinin rektoru Uğur Ünal iştirak ediblər.

Professor Əhməd Bican Ercilasun açılış nitqində bildirib ki, Füzuli irsi ədəbiyyatın və fəlsəfənin zirvəsi olmaqla yanaşı, həm də Türk dünyasını birləşdirməyə davam edir.

Akademik İsa Həbibbəyli çıxışında Məhəmməd Füzulinin 530 illiyi ilə bağlı Azərbaycan Prezidentinin sərəncam imzaladığını diqqətə çatdırıb, bu yubileyin bütün Türk dünyasında geniş qeyd edildiyini deyib.

davamı səh. 3-də

## "Qızıl nar" 15-ci dəfə sahiblərinə təqdim olunub

Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin (ARKA) dəstəyi ilə 2–8 oktyabr tarixlərində keçirilən "Baku Cinema Breeze" (BCB) Beynəlxalq Festivalının çətiri altında təşkil olunan ənənəvi kino layihələrindən biri də bu il 15-cisi gerçəkləşən Bakı Beynəlxalq Film Festivalı idi.



Oktyabrın 8-də Nizami Kino Mərkəzində festivalın bağlanışı və qaliblərin mükafatlandırılması mərasimi keçirilib.

Tədbirdə Bakı Beynəlxalq Film Festivalının direktoru Fehruz Şamıyev layihənin keçdiyi yoldan söz açıb. Bildirib ki, 4-8 oktyabr tarixlərini əhatə edən budəfəki festivalda filmlərin seçiminə xüsusi həssaslıqla yanaşılıb: "Festivala təxminən 800 film təqdim olunmuşdu. Seçim prosesində iştirak edən münsiflərə təşəkkür edirəm. Kinosevərlərə minnətdaram ki, beş gün müddətində filmləri izlədilər. Düşünürəm ki, bu günlər, sadəcə, kino nümayişləri ilə yox, həm də yeni əlaqələrin qurulması, sənət müzakirələri ilə də yadda qaldı".

Sonra festivalın qalibləri elan edilib və müvafiq nominasiyalar üzrə "Qızıl nar" mükafatları sahiblərinə verilib.

davamı səh. 3-də

## Berlində "Türk dünyası"

### Xalq rəssamı Əşrəf Heybətin sərgisi



Yunus Əmrə İnstitutunun Berlindəki mərkəzində Almaniyada yaşayan Azərbaycanın Xalq rəssamı, Almaniya Rəssamlar Birliyinin, UNESCO Rəssamlar Federasiyasının üzvü, Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü Əşrəf Heybətin sərgisi təşkil edilib.

"Türk dünyası" adlı sərginin açılışında Azərbaycanın və digər türkdilli ölkələrin Almaniyadakı səfirliklərinin əməkdaşları, türk xalqları icmalarının təmsilçiləri, yerli mədəniyyət nümayəndələri iştirak ediblər.

Oktyabrın 11-də başa çatacaq sərgidə rəssamın 38 əsəri yer alıb. Tablolarda geniş coğrafiyanı əhatə edən Türk dünyasının zəngin tarixi-mədəni irsi, memarlıq abidələri, adət-ənənələri əksini tapıb.

## Ədəbiyyat üzrə Nobel mükafatı Cənubi Koreya yazıçısına verilib

2024-cü ilin ədəbiyyat üzrə Nobel mükafatı laureatı Cənubi Koreya yazıçısı Han Kang olub. İsveç Kral Elmlər Akademiyası bu qərarı oktyabrın 10-da elan edib.

54 yaşlı yazıçı tarixi travmaları və insan həyatının kövrəkliyini göstərən poetik nəsrə görə bu mükafata layiq görülüb.

Han Kang 1970-ci ildə Cənubi Koreyada anadan olub. Yonsey Universitetində ədəbiyyat üzrə təhsil alıb. 1993-cü ildə şeirləri yerli dərgilərdə çap olunub. Növbəti ildə "Qırmızı lövbər" adlı qısa hekayəsi "Seul Şinmun" müsabiqəsində qalib gəlib. Sonralar "İ Sanq" ədəbiyyat mükafatı, "Koreya roman ədəbiyyatı" və s. mükafatlara layiq görülüb.

davamı səh. 2-də

## Bakıda yenə caz havası olacaq...

### 11 ölkədən ifaçı və kollektivlər bir araya gələcək

Oktyabrın 17-dən 27-dək Bakı payızında yenə caz havası olacaq.




XIX Bakı Caz Festivalı bu dəfə də müxtəlif ölkələrdən tanınmış ifaçılar qatılacaq. Festivalda Braziliya, İsveç, Çexiya, Rumıniya, Kuba, Fransa, Almaniya, Moldova, İsrail, İtaliya caz ifaçıları ilə yanaşı, azərbaycanlı musiqiçi və kollektivlər də çıxış edəcəklər.

Festival çərçivəsində "Moving Sketch" adlı rəsm sərgisi, "Best World Jazz Foto" sərgisi, aktyor, rəssam Bəhram Bağırzadənin uşaqlar üçün "Caz" kitabının təqdimatı, dünya caz ulduzları ilə görüşlər, eləcə də "İpək üzərində caz" qurama ekspozisiyası təşkil olunacaq.

Festivalın açılış günü, oktyabrın 17-də Munir Hossn&Elas (Braziliya) çıxış edəcək. Festivalın konsert və təqdimatları Jolly Joker, Beynəlxalq Muğam Mərkəzi, Milli Konservatoriya, ADA Universiteti və Caz-klubda təşkil olunacaq.

Paytaxtımızın caz ənənələrinə öz töhfəsini verən festival mədəni həyatımıza qızılı əhval bəxş edəcək.



"DokuBaku" festivalının qalibləri məlum olub

səh. 2




Şəhid qəhrəmana həsr olunan kitab təqdim edildi

səh. 3

# Professor Aida İmanquliyevanın 85 illiyinə həsr olunmuş elmi konfrans

Oktyabrın 10-da AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda görkəmli şərqşünas-alim, professor Aida İmanquliyevanın (1939–1992) 85 illik yubileyinə həsr olunmuş elmi konfrans keçirilib.



Konfransı açan AMEA-nın akademik-katibi Arif Həşimov Azərbaycan şərqşünaslıq elminin inkişafında Aida İmanquliyevanın mühüm rolu olduğunu qeyd edib, onun xüsusilə ərəb məhcər ədəbiyyatının tədqiqi sahəsində elmə böyük töhfələr verdiyini bildirib.

AMEA-nın vitse-prezidenti, Şərqşünaslıq İnstitutunun direktoru Gövhər Baxşəliyeva "Görkəmli şərqşünas, unudulmaz şəxsiyyət" mövzusunda məruzə edib. O bildirib ki, Azərbaycanda ərəbşünaslıq üzrə ilk filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın apardığı tədqiqatlar və yazdığı əsərlər ona nəinki keçmiş Sovet İttifaqında, hətta bir sıra xarici ölkələrdə şöhrət qazandırıb.

Aida İmanquliyevanın Azərbaycanda Şərq-Qərb qarşılıqlı əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk alim olduğunu deyən akademik onun çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezinin tədqiq olunduğunu qeyd edib.

Məruzədə görkəmli alimin elmi-təşkilati, pedaqoji fəaliyyətindən, tərcümələrindən, beynəlxalq elmi tədbirlərdə Azərbaycan şərqşünaslıq elmini layiqincə təmsil etməsindən də söz açılıb.

Konfransda daha sonra Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsinin dekanı dosent Aydan Xəndan, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin baş elmi işçisi filologiya elmləri doktoru Bəsirə Əzizəliyeva, Şərqşünaslıq İnstitutunun direktor müavini dosent Ruhəngiz Cümşüdlü, Ərəb ölkələrinin tarixi və iqtisadiyyatı şöbəsinin müdiri dosent Fərda Əsədovun məruzələri dinlənilib.

# "Tablolarda nağıllar"

## Səttar Bəhlulzadənin 115 illiyinə həsr edilmiş müsabiqə keçirilir

Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi və Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı, Azərbaycan Rəssamlar İttifaqının dəstəyi ilə Xalq rəssamı Səttar Bəhlulzadənin 115 illiyinə həsr olunmuş "Tablolarda nağıllar" adlı gənc rəssamların yaradıcılıq müsabiqəsi keçirilir.




"Azərbaycanın xalq nağılları təsviri sənətdə" mövzusunda keçirilən müsabiqədə 18-30 yaş arası gənc rəssamlar iştirak edə bilər. Rəssamların Azərbaycanın şifahi xalq ədəbiyyatından götürülmüş müxtəlif epizodların (hadisələrin), obrazların əks olunduğu əsərləri qəbul ediləcək.

İştirakçılardan müsabiqə-sərgiyə təqdim edəcəkləri işlər haqqında məlumatları noyabrın 25-dək sergimusabiqe@gmail.com elektron ünvanına göndərmələri xahiş olunur. Əsərlər tək-tək göndərilməli, məlumatlar dolğun olmalıdır.

Seçim üçün elektron ünvana məlumat göndərən rəssamlardan əlaqə nömrələrini qeyd etmələri xahiş olunur. Rəsm müsabiqə-sərgisinə hər bir iştirakçı 2 rəsm işi göndərə bilər. Orta və böyük ölçülü əsərlərə üstünlük veriləcək (60x70, 70x90, 100x100 sm və s.). Əsərlərin səliqəli və çərçivələnmiş olması vacibdir.

Əsərlərin ilkin seçim mərhələsi onlayn qaydada aparılacaq. Daha sonra seçilmiş əsərlərdən müsabiqənin qaliblərinin müəyyənləşdirilməsi peşəkar rəssamlardan ibarət münsiflər heyəti tərəfindən həyata keçiriləcək.

Seçilmiş əsərlər dekabrın 6-dək sərginin keçiriləcəyi ünvana çatdırılmalıdır.

# Şuşada İslam Dünyası İrs Komitəsinin sessiyası keçirilib

## Şuşa və Ağdam abidələri İslam Dünyası İrsinin İlkin Siyahısına salınıb

2024-cü ildə "İslam dünyasının mədəniyyət paytaxtı" missiyasını daşıyan Şuşa şəhəri 8-9 oktyabr tarixlərində İslam Dünyası İrs Komitəsinin 12-ci sessiyasına ev sahibliyi edib. Tədbir İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı – ICESCO, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin təşkilatçılığı ilə gerçəkləşib.

Şuşaya gələn qonaqlar üçün əvvəlcə şəhərin mədəni irs yerlərinə ekskursiya təşkil edilib.

Sessiyanın açılış iclasında çıxış edən Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov qonaqları salamlayıb və komitənin işinə uğurlar arzulayıb.

Sonra ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malikin tədbir iştirakçılarına müraciəti oxunub.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxışında Azərbaycanın mədəni irsi və bu irsin qorunması naminə həyata keçirilən dövlət siyasəti haqqında məlumat verib. Ölkəmizin zəngin tarixi-mədəni irsində Qarabağ irsinin xüsusi yer tutduğunu deyən nazir müavini işğal dövründə dağıdılmış abidələrə dair statistik məlumatları diqqətə çatdırıb, mədəni mühitin və irsin canlandırılması üçün hazırda davam edən bərpa-quruculuq işləri haqqında danışıb. Bununla yanaşı, təbii irsin qorunmasının vacibliyini vurğulayan Səadət Yusifova Mədəniyyət Nazirliyinin COP29 çərçivəsində planlaşdırdığı beynəlxalq tədbirlər və yeni təşəbbüslər haqda danışıb.

Komitənin sədri, Səudiyyə Ərəbistanının təmsilçisi Alayidarus Muhammed yüksək səviyyədə təşkilatçılığa görə ev sahibi Azərbaycana təşəkkürünü bildirib və sessiyanın gündəliyi barədə məlumat verib.

Açılış toplantısının sonunda Şuşa Şəhəri Dövlət Qoruğuna həsr olunmuş xüsusi təqdimat nümayiş olunub. Komitənin üzvləri xatirə fotosu çəkdiriblər.

***

Fasilədən sonra keçirilən birinci sessiyada İslam Dünyası




İrs Mərkəzinin direktoru Vebber Ndoro tərəfindən bu qurumun konsepsiyası, növbəti iki ili əhatə edən prioritetləri təqdim olunub.

Təqdimata dair Azərbaycan, Burkino Faso, Qətər, Fələstin və digər ölkələrin təklifləri müzakirə edilib. Ekspertlər şurasında ölkəmizi təmsil edən Rizvan Bayramovun çıxışında Komitə tərəfindən müsəlman ölkələrində mövcud olan qeyri-islam irsi, eləcə də qeyri-islam ölkələrində mövcud İslam irsinin müvafiq siyahıyaalma mexanizmləri üzrə işin təkmilləşdirilməsi təklif olunub.

İkinci sessiyada 2024-cü ildə həyata keçirilmiş layihələr üzrə hesabatlara baxılıb, Komitə üzvlərinin təklifləri müzakirə edilib.

***

Oktyabrın 9-da sessiya işini davam etdirib.

Sessiyanın üçüncü iclasında İslam Dünyasının İrs Siyahısına təqdim edilmiş müxtəlif nominasiyalar nəzərdən keçirilib.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən təqdim edilmiş "Şuşa Tarix-Memarlıq Qoruğu" və "Ağdam İmarət Kompleksi və Cümə məscidi" adlı iki nominasiyanın ICESCO-nun İslam Dünyası İrsinin İlkin Siyahısına daxil edilməsi barədə təklif müzakirə olunub.

Əvvəlcə İslam Dünyası İrs Komitəsində ölkəmizi təmsil edən ekspert Rizvan Bayramovun çıxışı dinlənilib.



Sonra Mədəniyyət Nazirliyi Beynəlxalq təşkilatlarla əməkdaşlıq sektorunun müdiri Araz Bağırlı "Ağdamın inciləri" adlı təqdimatla çıxış edib. Təqdimatda Ağdamın mədəni irsi ilə bağlı dörd dövr – yaradılış (Qarabağ xanlığı dövrü və XIX əsr), mədəniyyət institutlarının inkişafı (1993-cü ilə qədər), işğal və kultursid (1993–2020-ci illər) və mədəniyyətin canlandırılması (2020-dən sonra) diqqətə çatdırılıb.

İştirakçılar "İmarət" kompleksi, Cümə məscidi, Ağdam Dövlət Dram Teatrı, Çörək muzeyi, Çay evi kimi simvolik abidələrin müxtəlif dövrlərdə olan vəziyyətini əks etdirən fotomateriallarla tanış olublar.

İclasda mədəni irsin bərpa edilməsində Azərbaycan təcrübəsinin bütün dünyada postmünaqişə zonalarında mədəni irsin canlandırılması üçün unikal model olduğu vurğulanıb.

Müzakirələrdən sonra komitə üzvləri tərəfindən "Şuşa Tarix-Memarlıq Qoruğu" və "Ağdam İmarət Kompleksi və Cümə məscidi" nominasiyalarının İslam Dünyası İrsinin İlkin Siyahısına salınması barədə qərar qəbul edilib.

Ölkəmiz üçün əlamətdar olan bu nominasiyaların növbəti illərdə İslam Dünyasının İrs Siyahısına daxil edilməsi üçün zəmin yaradıb.

Qeyd edək ki, hazırda sözügedən siyahıda ölkəmizdən üç nominasiya yer alır. 2019-cu ildə Mərakeşin paytaxtı Rabatda keçirilmiş İslam Dünyası İrs Komitəsinin iclasında İçərişəhər (Qız qalası və Şirvanşahlar saray kompleksi ilə birlikdə), Şəkinin tarixi mərkəzi (Xan sarayı ilə birlikdə) və Qobustan qayaüstü rəsmləri ICESCO-nun İslam Dünyasının İrs Siyahısına salınıb.

# Bolqarıstanda mədəniyyət paytaxtımızla bağlı sərgi

## "Şuşa – Azərbaycanın tarixi və mədəni incisi"

Oktyabrın 8-dən 10-dək Bolqarıstanın Veliko Tırnovo şəhərində keçirilən XIX Beynəlxalq Mədəni Turizm Sərgisində "Şuşa – Azərbaycanın tarixi və mədəni incisi" adlı fotosərgi nümayiş olunub.

Bu barədə ölkəmizin Bolqarıstandakı səfirliyindən məlumat verilib. Bildirilib ki, sərgidə səfirliyin təşəbbüsü və Bakı Media Mərkəzinin dəstəyi ilə Şuşanın füsunkar təbiətini, tarixi abidələrini və özünəməxsus rəngarəng arxitekturasını əks etdirən fotoşəkillər nümayiş etdirilib.

Səfir Hüseyn Hüseynov Şuşanın Azərbaycanın tarixində və mədəniyyətində tutduğu əvəzsiz yeri, zamanında Qafqazın ticari və iqtisadi mərkəzlərindən biri olması, Şərq ədəbiyyatına və incəsənətinə verdiyi töhfələr barədə danışıb.

Otuz ilə yaxın sürən erməni işğalından sonra Şuşanın 2020-ci ildə azad edildiyini və 2021-ci ildə Azərbaycanın mədəniyyət paytaxtı elan olunduğunu deyən səfir vurğulayıb ki, Prezident İlham Əliyevin xüsusi diqqəti sayəsində bərpa edilən şəhər yenidən təkcə Azərbaycanın deyil, bütün Qafqazın parlaq incisinə çevrilməkdədir.




Veliko Tırnovo şəhərində keçirilən beynəlxalq sərginin turizm bölümündə Azərbaycanın mədəni turizm potensialını təşviq edən milli stend yer alıb, ölkəmizin gözəl təbiətini, qədim tarixini və adət-ənənələrini əks etdirən fotoşəkillər, suvenirlər və xalılar nümayiş etdirilib, qonaqlara onlar barədə ətraflı məlumat verilib, eyni zamanda milli mətbəx nümunələri təqdim olunub.

Xatırladaq ki, Bolqarıstanda ənənəvi olaraq keçirilən Beynəlxalq Mədəni Turizm sərgisi Balkan regionunda bu sahədə ixtisaslaşmış yeganə sərgi platformasıdır.

# VIII "DokuBaku" festivalının qalibləri məlum olub

Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin (ARKA) dəstəyi ilə 2-8 oktyabr tarixlərində keçirilən "Baku Cinema Breeze" Beynəlxalq Festivalı çərçivəsində təşkil olunan VIII "DokuBaku" Beynəlxalq Sənədli Filmlər Festivalının qalibləri elan edilib.

"iCosmos" mövzusuna həsr olunan builki festivalın proqramı üzrə 30-dan çox ölkədən 200-dən artıq əsər arasından seçilən 70-dən artıq film nümayiş etdirilib.

Festivalın müsabiqə kateqoriyaları üzrə qalibləri polşalı rejissor Pavel Lozinski, tacik kinotənqidçisi Şarofat Arabova, serbiyalı prodüser və sənət tarixçisi Mara Peohaska Markoviç, rumıniyalı kinotənqidçi Alin Ludu Dumbrava, Azərbaycandan ssenarist, yazıçı Nərgiz Bağırzadə, rejissor, prodüser Seyran Mahmudoğlu, rejissor, AKİ-nin katibi Oleq Səfərəliyev, Tbilisi Müasir Rəqs Festivalının direktoru Tamuna Qurçiani, Rusiyadan bədii və sənədli filmlər rejissoru, ssenarist Yevgeni Sımbal və digərləri müəyyən ediblər.



Festivalın qaliblərini təqdim edirik:

"Ən yaxşı qısametrajlı sənədli film" – "Elə o vaxtdan mən uçuram" / Rejissor: Aylin Gökmen (İsveçrə).

"Ən yaxşı qısametrajlı sənədli film" kateqoriyası üzrə münsiflər heyətinin xüsusi mükafatı – "4:30" / Rejissor: Vasili Ovçinnikov (Rusiya).

"Ən yaxşı yerli qısametrajlı sənədli film" – Birinci yer: "Kaifunun çağırışı" / Rejissor: Ağaəli Sədirli; İkinci yer: "Fəsillər" / Rejissor: Pərviz Həsənov.

"Ən yaxşı yerli qısametrajlı sənədli film" kateqoriyası üzrə münsiflər heyətinin xüsusi mükafatı – "Tanrının xilas əli" / Rejissor: Babək Abbaszadə.

"Ən yaxşı tammetrajlı sənədli film" – "Aqatanın üzləri" / Rejissor: Malqorzata Kozera (Polşa). Münsiflər heyətinin xüsusi mükafatı – "Qar durnalarının anası" Rejissor: İris Harma (Finlandiya); "Bir qərib axtarışı" Rejissor: Andrea Qatopulos (İtaliya).

Bundan əlavə, "Müsabiqədənkənar sənədli filmlər" və "Müsabiqədənkənar ən yaxşı qısametrajlı sənədli film" kateqoriyaları, habelə "Tamaşaçıların seçimi" kateqoriyası üzrə də filmlər mükafatlandırılıb.

# Ədəbiyyat üzrə Nobel mükafatı Cənubi Koreya yazıçısına verilib

## İnsan həyatının kövrəkliyini göstərən poetik nəsrə görə...

*əvvəli səh. 1-də*

Han Kang 2016-cı ildə ingilis dilinə tərcümə edilərək nəşr olunan "Vegeterian" romanı ilə Beynəlxalq Buker mükafatına (The International Booker Prize) layiq görülüb. Bu mükafat ingilis dilinə tərcümə olunmuş və Böyük Britaniyada çap edilmiş əsərlərə verilir. Əsər xəstə olan və ailəsinin etinasızlığı ilə qarşılaşan qadının həyatından bəhs edir. Qeyd edək ki, müəllifin bu əsəri Azərbaycan dilində də çap olunub.




Ədəbiyyat üzrə Nobel mükafatı İsveç Kral Elmlər Akademiyası tərəfindən ədəbiyyat sahəsində əhəmiyyətli töhfələr verən müəlliflərə təqdim olunur. Alfred Nobelin 1895-ci ildəki vəsiyyəti əsasında təsis edilmiş beş Nobel mükafatından biridir və 1901-ci ildən verilir.

Mükafat Nobel Fondu tərəfindən idarə olunur və İsveç Akademiyası tərəfindən seçilmiş beş üzvdən ibarət komitə (Nobel Komitəsi) tərəfindən verilir. Laureat medal, diplom və illər ərzində dəyişən miqdarda pul mükafatı alır.

***

Qeyd edək ki, ənənəvi Nobel həftəsində 7 oktyabrda fiziologiya və tibb, 8 oktyabrda fizika, oktyabrın 9-da isə kimya sahəsində laureatlar elan edilib.

2024-cü il üzrə fiziologiya və tibb sahəsində Nobel mükafatının laureatları amerikalı alimlər Viktor Ambros və Qeri Ruvkun (mikroRNT-nin kəşfi və onun posttranskripsiya gen tənzimləməsində rolunun tədqiqinə görə) olub.

Fizika sahəsində Nobel mükafatını ABŞ-nin Prinston Universitetindən Con Hopfild və Kanadanın Toronto Universitetindən Ceofrey Hinton qazanıblar. Mükafat onların süni neyron şəbəkələri ilə maşın öyrənməsinə imkan verən kəşf və ixtiralarına görə verilib.

2024-cü il üzrə kimya sahəsində Nobel mükafatı isə həyatın açarı sayılan protein tədqiqi sahəsində çalışan üç alimə verilib. Devid Beyker "hesablamalı zülal dizaynı", Demis Hassabis və Con Camper "zülal strukturunun proqnozlaşdırılması" üzrə tədqiqatlara görə bu mükafata layiq görülüblər.

Beşinci – iqtisad elmi üzrə Nobel mükafatının laureat(lar)ı oktyabrın 11-də elan olunmalıdır.

# Mədəniyyətə əsaslanan iqlim fəaliyyəti

## UNESCO-da Azərbaycanın COP29-la bağlı təşəbbüsünə həsr edilmiş konfrans

*əvvəli səh. 1-də*

Həmçinin COP29-un əhəmiyyətindən və məqsədlərindən danışılıb. Bildirilib ki, Bakının ev sahibliyi edəcəyi COP29 iqlim böhranının həlli istiqamətində xüsusi əhəmiyyətə malikdir. Bakıda "Dostlar Qrupu"nun fəaliyyətinin aktivləşəcəyinə, iqlim dəyişikliyi ilə bağlı qəbul ediləcək qərar və görüləcək tədbirlərin mədəni irsin qorunması baxımından da böyük əhəmiyyət kəsb edəcəyinə inam ifadə olunub.

İqlim dəyişikliyi ilə mübarizədə mədəniyyətin həlledici əhəmiyyəti, eləcə də iqlim təsirlərinin həlli yollarında əsas rolu, mədəniyyətin iqlim dəyişikliyi ilə mübarizə strategiyalarına inteqrasiyasının vacibliyi vurğulanıb. Dövrümüzün ən böyük problemlərindən olan iqlim dəyişikliyini azaltmaq və ona uyğunlaşmaq üçün mədəniyyətin əsas mənbə olduğu diqqətə çatdırılıb.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov Azərbaycanın COP29-a ev sahibliyi və bu mötəbər tədbirin məqsədlərindən söz açıb. O, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildə başlamış "Bakı Prosesi"nin əhəmiyyətini vurğulayıb və bu ilin mayında paytaxtımızda keçirilən VI Dünya Mədəniyyətlərarası Dialoq Forumunun yekun bəyannaməsini xatırladıb.





### "Mədəniyyətin gücündən istifadə etməklə möhkəm gələcək qura bilərik"

"COP29-a ev sahibliyi edən ölkə kimi Azərbaycan bu mühüm səyə öz töhfəsini verməyə dərindən sadiqdir. Mədəniyyətin gücündən – ortaq dəyərlərimizdən, biliklərimizdən və yaradıcı ifadəmizdən – istifadə etməklə hamı üçün daha davamlı və möhkəm gələcək qura biləcəyimizə inanırıq. Mədəni fəaliyyətə olan bu öhdəlik Azərbaycanın beynəlxalq fəaliyyətində dərin kök salmışdır. Mədəni müxtəlifliyi, mədəniyyətlərarası dialoqu və mədəni irsin qorunmasını təşviq etmək üçün UNESCO da daxil olmaqla çoxsaylı təşkilatlarla fəal əməkdaşlıq edirik. Bu tərəfdaşlığın bariz nümunəsi 2008-ci ildə başlanmış və müxtəlif mədəniyyətlər arasında əməkdaşlığı inkişaf etdirmək üçün qlobal miqyasda tanınan mədəniyyətlərarası dialoq üzrə "Bakı Prosesi"dir", – deyə Fərid Cəfərov vurğulayıb.

Qeyd olunub ki, VI Dialoq Forumunun yekun bəyannaməsində mədəni irsə müxtəlif təhlükələr, eləcə də iqlim dəyişikliyinin, qeyri-qanuni miqrasiya və silahlı münaqişələrin təsirləri diqqətə çatdırılıb, bu sahələrdə birgə fəaliyyətin zəruriliyi vurğulanıb.

Azərbaycan-UNESCO əməkdaşlığına toxunan nazir müavini qurumun İpək Yolları Proqramı, İpək Yolu Xəzər-Volqa Dəhlizi II Subregional Konfransı, "Volqa-Xəzər İpək Yolu Dəhlizi"nin Dünya İrs Siyahısına namizədliyi barədə danışıb, Azərbaycanın mədəni irsin qorunması sahəsində gördüyü işlərdən söz açıb.

"Mədəniyyətin qorunub saxlanılmasına sədaqətimiz, təbii olaraq, iqlim dəyişikliyi kimi qlobal problemlərin həllini əhatə edir. COP28 konfransında 30-dan çox hökumət hökumətlərarası və mədəniyyət təşkilatları ilə birlikdə "Mədəniyyətə əsaslanan İqlim Fəaliyyətinin Dostları Qrupu"nu (GFCBCA) yaratdı. Bu səy iqlim böhranının həllində mədəniyyətin rolunun tanınmasında mühüm addımdır. Qrup Azərbaycan, Braziliya və Birləşmiş Ərəb Əmirliklərinin birgə sponsorluğu ilə 2-ci Yüksək Səviyyəli Nazirlər Dialoqu üçün COP29-da yenidən toplanacaq", – deyə F.Cəfərov bildirib.

Vurğulanıb ki, Azərbaycanın COP29-a sədrliyi zamanı həmçinin mədəniyyəti müsbət iqlim fəaliyyətinə qlobal güc kimi təbliğ etmək məqsədilə "Mədəniyyətə əsaslanan iqlim fəaliyyəti" (C4C) təşəbbüsü işə başlayacaq. C4C təşəbbüsü mədəniyyətin davranışları necə formalaşdıra biləcəyi və iqlim böhranı üçün transformativ həll yolları haqqında fikirlər təqdim edəcək.

Beynəlxalq ekspert Martin Nyumən təməli Bakıda qoyulacaq, Azərbaycanın COP29-a sədrliyi çərçivəsində dünya ölkələrinin mədəniyyət nazirlərini bir araya gətirəcək C4C təşəbbüsünün mahiyyəti, məqsəd və strategiyalarını təqdim edib. Bildirib ki, Azərbaycan Mədəniyyət Nazirliyinin bu yeni təşəbbüsü "Dostlar Qrupu"nun mühüm səylərini tamamlayacaq, potensialını gücləndirəcək.

"Mədəniyyətə əsaslanan iqlim fəaliyyəti" təşəbbüsü ilə bağlı videotəqdimat olub. Konfrans UNESCO-ya üzv dövlətlərin daimi nümayəndələrinin çıxışları ilə davam edib.

# "Şuşada bitən yuxular"

## Şəhid qəhrəmana həsr olunan kitab təqdim edildi



2020-ci ilin Vətən müharibəsi şəhidi, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) məzunu Teymur Məcidzadənin xatirəsinə həsr edilən "Şuşada bitən yuxular" kitabının təqdimatı keçirildi.

Şəhidin dünyaya gəldiyi 10 oktyabrda UNEC-də təşkil olunan tədbirdə qəhrəmanın ailə üzvləri, millət vəkilləri iştirak edirdilər.

Tədbirin aparıcısı Jalə Həsənli bildirdi ki, Teymur Tehran oğlu Məcidzadə 1992-ci ildə Füzuli rayonunun Gecəgözlü kəndində anadan olub. 1993-cü ildə rayonun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsindən sonra ailəsi Bakıya pənah gətirib.

Məcid burada orta məktəbi bitirdikdən sonra 2010–2014-cü illərdə Azərbaycan Dövlət İqtisad Universitetində dünya iqtisadiyyatı ixtisası üzrə təhsil alıb. Sərhəd Qoşunları tərkibində əsgəri xidmətini başa vuran Məcid həyatını hərbçi kimi davam etdirmək qərarına gəlir. İkinci ali təhsil kimi Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutuna daxil olur. Hərbi təhsilini uğurla başa vuraraq leytenant rütbəsi alır.

Hərbi hissədə tağım komandiri vəzifəsinə təyin olunan Teymur Məcidzadə Vətən müharibəsində Füzuli rayonundan Şuşayadək döyüş yolu keçib. Doğulduğu Gecəgözlü kəndinin işğaldan azad edilməsində iştirak edib və kəndə ilk ayaq basan hərbçilərdən olub. 2020-ci il noyabrın 9-da, Vətən müharibəsinin 43-cü günündə, savaşın bitməsinə saatlar qalmış Şuşa rayonu ərazisində şəhidlik zirvəsinə ucalıb. Bakıda Fəxri xiyabanda torpağa tapşırılıb.

Dövlət başçısının müvafiq sərəncamları ilə ölümündən sonra III dərəcəli "Rəşadət", "Vətən uğrunda", Cəbrayıl, Füzuli və Şuşanın azad olunmasına görə medalları ilə təltif edilib.

Tədbirdə çıxış edən UNEC-in rektoru professor Ədalət Muradov, Nizami Rayon İcra Hakimiyyətinin başçısı Coşqun Cəbrayılov şəhidlərimizin əziz xatirəsinin daim qəlblərdə yaşayacağını dedilər.

Vurğulandı ki, bu gün işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işlərini izləyərkən şəhidlərimizin xatirəsini dərin ehtiramla yada salır, qazilərimizə minnətdarlıq edirik.

"Şuşada bitən yuxu" kitabının müəllifi Könül Qurbanova, Teymur Məcidzadənin anası Yasəmən xanım tədbirin təşkilatçılarına və iştirakçılarına, kitabın hazırlanmasında dəstəyinə və nəfis şəkildə çapına görə "Zərdabi" nəşriyyatına təşəkkür etdilər.

Bədii hissədə Əməkdar artist Nuriyyə Hüseynova və Beynəlxalq Muğam Mərkəzinin solisti Mirələm Mirələmovun vətənpərvərlik ruhunda ifaları təqdim olundu. Ağdam rayon 33 nömrəli orta məktəbin 4-cü sinif (Teymur Məcidzadə adına) şagirdləri və Pirallahı rayon Yavər Əliyev adına 225 nömrəli məktəbin şagirdləri şəhidlərə həsr olunan kompozisiya ilə çıxış etdilər.

**Lalə Azəri**

# Ankarada Füzuli simpoziumu

*əvvəli səh. 1-də*




Bildirib ki, dahi Azərbaycan şairinin adı haqlı olaraq dünya ədəbiyyatının şah əsərlərinin müəllifləri ilə bir sırada çəkilir. "Füzulinin adı Azərbaycan tarixində həm doğma Azərbaycan dilində, həm də ərəb və fars dillərində ədəbi əsər nümunələrinin müəllifi kimi əbədi olaraq qalacaq. Başqa belə bir şair yoxdur" deyən İsa Həbibbəyli mütəfəkkir şairin "Şikayətnamə", "Leyli və Məcnun" və digər əsərlərini, qəzəllərini söz sənətinin ölməz abidələri adlandırıb.

Qeyd edib ki, hələ şairin sağlığında əsərləri İstanbul, Təbriz, Daşkənd və Türk dünyasının digər iri şəhərlərində məşhur olub. "Füzuli yaradıcılığı tarixin sınağından çıxıb və əsrlər boyu yaşayacaq" deyən AMEA prezidenti dahi şairin yaradıcılığından bəhs edən kitabı Qazi Universitetinə hədiyyə edib.

Azərbaycanın Ankaradakı səfiri Rəşad Məmmədov simpoziumun təşkilatçılarına minnətdarlığını bildirib. Diplomat xatırladıb ki, Azərbaycanın rayonlarından biri Füzulinin adını daşıyır. Otuzillik erməni işğalından azad edilən ölkəmizin bu bölgəsi indi yenidən qurulur. Diplomat qeyd edib ki, tarixinin ən çətin dövrlərində belə Azərbaycan Füzulini unutmayıb. Ümummilli lider Heydər Əliyev 1994-cü ildə Füzulinin 500 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamış, bu yubiley böyük təntənə ilə, o cümlədən Ankarada qeyd edilmişdi.

***

Görkəmli şair və mütəfəkkir Məhəmməd Füzulinin irsi əsrlər boyu təkcə Türk dünyasının deyil, bütövlükdə bəşəriyyətin mədəni-mənəvi inkişafına xidmət edib.

Bunu isə simpoziumda çıxış edən AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru Teymur Kərimli deyib. Akademik bildirib ki, Füzulinin əsərlərinin geniş miqyasda şöhrət qazanmasının sirri dahi şairin yaradıcılığının hər bir yeni nəslin nümayəndələrinə xitab etməsidir: "Onun poeziyasının gücü bir çiçək kimi bəslədiyi və gələcək nəsillərə məhəbbətlə ötürdüyü Azərbaycan dilindən qaynaqlanır. Füzuli öz əsərlərində təkcə Azərbaycan türklərinə deyil, Osmanlı dövlətinin sakinlərinə, Orta Asiya xalqlarına da müraciət edir. Şair-maarifçi türk xalqları arasında körpü rolunu oynayıb".

"Dahi şairin yaradıcılığının məqsədlərindən biri də insanları qəm və kədərdən xilas etməkdir. Əgər Füzuli və Nizami kimi görkəmli humanistlər olmasaydı, müasir dünya bir çox problemlərlə mübarizə aparardı", – deyə Teymur Kərimli vurğulayıb.

Simpoziumun davamında füzulişünas alimlərin, ədəbiyyatşünasların dahi şairin irsi ilə bağlı məruzə və çıxışları dinlənilib.

Tədbirdə VI Muğam müsabiqəsinin qalibi Almaxanım Əhmədli Füzulinin qəzəlləri üstündə muğam parçaları ifa edib. "TRT Türkü" radio kanalının "Azərbaycan rüzgarı" verilişinin aparıcısı Səidə Ömər dahi şairin poetik incilərini qiraət edib.

# Məqsədimiz Xınalıqda görülən işləri ictimaiyyətə təqdim etməkdir

"Xınalıq kəndi və Köç yolu" ötən il UNESCO-nun Dünya İrs Siyahısına daxil edilib. Məqsədimiz Xınalıq kəndində görülən işləri media vasitəsilə təqdim etməkdir.



Bunu Xınalıq kəndinə mediatur zamanı Azərbaycan Dövlət Turizm Agentliyinin (DTA) sədri Fuad Nağıyev deyib.

O diqqətə çatdırıb ki, Xınalıq kəndi Azərbaycanın ən qədim ərazilərindən biridir. Biz burada məskunlaşan sakinlərlə daim təmasdayıq və onlara dəstək göstəririk. Kənddə 130-dan çox ev var. İndiyə kimi 60 evlə bağlı layihə həyata keçirilib, 41 ev tam bərpa olunub. Qalan evlərlə bağlı işlər davam edəcək.

Xınalığa aid layihə hazırda nəzərdə tutulan 22 layihədən biridir. Digər 21 obyekt üzrə də işlər görülür ki, onların arasında icra, layihələndirmə, ekspertiza və tender mərhələsində olan işlər var.

Bunu isə jurnalistlərə açıqlamasında DTA-nın baş memarı Nizami Qasımov söyləyib. O bildirib ki, layihələrin spesifikası qarışıqdır. Tuğda (Xocavənd rayonu – red.) turizm infrastrukturu inşa edirik, amma Şəkidə muzey və yaxud şəbəkə emalatxanası yenidən bərpa olunur.

Qeyd edək ki, mediatur "Xınalıq və Köç yolu"nun Dünya İrs Siyahısına salınmasının ildönümü münasibətilə təşkil olunub.

DTA tabeliyində "Xınalıq və Köç yolu" Dövlət Tarix Mədəniyyət və Etnoqrafiya Qoruğu 2023-cü il sentyabrın 4-də Azərbaycan Prezidentinin sərəncamı ilə yaradılıb. Ötən il sentyabrın 18-də isə UNESCO-nun Dünya İrs Komitəsinin 45-ci sessiyasında (Ər-Riyad şəhəri, Səudiyyə Ərəbistanı) "Xınalıq və Köç yolu mədəni landşaftı" UNESCO-nun Dünya İrs Siyahısına daxil edilib.

# "Qızıl nar" 15-ci dəfə sahiblərinə təqdim olunub

*əvvəli səh. 1-də*

Beynəlxalq müsabiqənin "Tammetrajlı film" kateqoriyasında "Ən yaxşı təsvir rejissoru" üzrə azərbaycanlı rejissor Emin Əfəndiyevin "Tənha insanın monoloqu" filmi qalib olub.

"Ən yaxşı ssenari" kimi "Bazar günü" (Şakir Xolikov – Özbəkistan), "Ən yaxşı rejissor" nominasiyasında "Rosinante" (Baran Gündüzalp – Türkiyə), "Ən yaxşı tammetrajlı" nominasiyasında "Baurına salu" (Asxat Kuçinçirekov – Qazaxıstan) filmi mükafat qazanıb. Bu kateqoriyada "Münsiflər heyətinin xüsusi qeydi" mükafatı rusiyalı rejissor İra Basın "Balam" filminə verilib.

Beynəlxalq müsabiqənin "Qısametrajlı filmlər" kateqoriyası üzrə "Münsiflər heyətinin xüsusi qeydi"nin mükafatına "Taksidermist" (Behzad Alavi, Süsən Salamat Çaqoşi – İran) və "Acqarına getməyək" (Yiğit Hepsev – Türkiyə) filmləri layiq görülüb.

Bu kateqoriyada həmçinin aşağıdakı nominasiyalar üzrə qaliblər olub: "Ən yaxşı animasiya" – "Atamın məktubları" (Aleksey Yevstinqneyev – Fransa); "Ən yaxşı sənədli film" – "Valeriya" (Sara Yurinçik – Xorvatiya); "Ən yaxşı rejissor" – "Çuxur" (Kristian Bekə, Oliver Şvabe – Almaniya); "Ən yaxşı bədii film" – "Demək olar, tamamilə yanlışdır" (Cansu Baydar – Türkiyə).



Festivalın "Asiya istedadları" müsabiqəsində "Ən yaxşı film" nominasiyasında "Fələstin adaları" (Nur bin Selem, Jülyen Menantu – Fələstin) filmi qalib elan edilib. Münsiflərin xüsusi mükafatı isə iranlı rejissor Alireza Şakerinin "Bədən alverçisi" filminə verilib.

Festivalın təsisçisi Gənc Kinematoqrafçılar Mərkəzinin də mükafatları sahiblərini tapıb. Bu mükafat Hindistandan "Umeşin xronikası" (Puca Kaul) və Koreya Respublikasından "Səsin arzusu" (Şinyu Kan) filmlərinə qismət olub.

***

Mərasimdə festivalın yerli müsabiqəsinin də qalibləri elan edilib.

"Ən yaxşı sənədli film" nominasiyasında "Babamın evi" (Leylaxanım Qənbərli), "Ən yaxşı ssenari" "Şam bağı" (İlkin Umarov), "Ən yaxşı rejissor işi"ndə "Qırmızı planetin ikinci rəngi" (Azər Quliyev), "Ən yaxşı bədii film" üzrə isə "Quyu" (Rufat Ray) filmləri mükafat alıb.

Münsiflər heyətinin xüsusi mükafatını "Baba haqqı" sənədli filmi (Nicat Qulam) qazanıb. "Qəfəs" filminin rejissorları (Murad Allahverdiyev, Ruhulla Rəhimov, Fərid Ayvazov, İlahə Nurullayeva, Şahin Hüseynli, Tural Ələsgərli, Mirtalib Həsənov, Sevinc Quliyeva, Səadət Qurbanova, Sərxan Nəciyev) isə "Münsiflər heyətinin qeydi" üzrə fərqləniblər.

Qeyd edək ki, ölkəmizin ən uzunömürlü festivalı olan Bakı Beynəlxalq Film Festivalı bu illər ərzində həm də Kann, Venesiya, Berlin film festivallarında uğur qazanmış, "Oskar" laureatı olmuş filmlərin nümayiş məkanına çevrilib. Bakı Beynəlxalq Film Festivalının dəstəkçiləri sırasında Nizami Kino Mərkəzi, "Azərbaycanfilm" kinostudiyası, Dövlət Film Fondu, "British Council" və Azərbaycan Prodüserlər Gildiyası yer alıb. Festivalın media tərəfdaşları arasında "Mədəniyyət" qəzeti də var.










# Şamaxıda tanınmış aşığın 60 illiyi qeyd edilib

Azərbaycan Aşıqlar Birliyi (AAB), Şamaxı Rayon İcra Hakimiyyəti və Dağlıq Şirvan Regional Mədəniyyət İdarəsinin (RMİ) birgə təşkilatçılığı ilə Şamaxı rayon Mədəniyyət Mərkəzində Əməkdar mədəniyyət işçisi, ustad aşıq Ağamurad İsrafilovun (Şirvanlı) 60 illik yubileyi münasibətilə tədbir keçirilib.



Rayonun icra başçısı Tahir Məmmədov, AAB-nin sədri professor Məhərrəm Qasımlı, Dağlıq Şirvan RMİ-nin rəisi Vasif Qurbanzadə, filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızı və digər çıxış edənlər Ağamurad Şirvanlını təbrik edib, ona xoş arzularını çatdırıblar.

Yubilyara fəxri fərmanlar və hədiyyələr təqdim olunub.

Bədii hissədə Xalq artistləri Nəzakət Teymurova, Zabit Nəbizadə, Əməkdar artistlər Elnarə Abdullayeva, Şirzad Fətəliyev, Əməkdar mədəniyyət işçisi Aşıq Samirə, Aşıq Əli, xanəndələr Nemət Ərəboğlu, Abgül Mirzəliyev və "İncə tellər" aşıqlar ansamblı çıxış ediblər. İfalar tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanıb.

Ağamurad İsrafilov Şamaxı rayon Əfzələddin Xaqani Şirvani adına Mədəniyyət Mərkəzinin Mərzəndiyyə kənd klubunun müdiri, eyni zamanda AAB-nin Şirvan bölməsinin sədridir.

# Daha 16 ailə Şuşaya qayıdıb

"Böyük Qayıdış" çərçivəsində keçmiş məcburi köçkünlərin doğma yurdlara qayıdışı davam edir. Oktyabrın 8-də daha 16 ailə (60 nəfər) Şuşaya köçüb.



Açarların təqdimolunma mərasimində Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin rəsmiləri iştirak ediblər.

Ailələr sevinc hissi ilə yeni mənzillərdə məskunlaşıblar.

Bununla da Şuşa şəhərində 220 ailənin, yəni 823 nəfərin daimi məskunlaşması təmin edilib.

# Türkiyəli gənclər Lənkəranda

Türkiyənin gənclərdən ibarət nümayəndə heyəti 6-7 oktyabr tarixlərində Lənkəran şəhərində olub. Qardaşlıq səfəri iki ölkənin Gənclər və İdman nazirlikləri arasında "Mütəxəssis mübadilə proqramı" çərçivəsində təşkil olunub.




Türkiyəli gənclər Lənkəran Gənclər Evində dərnəklərin fəaliyyəti ilə tanış olublar. Gənclər Evinin könüllüləri ilə çay süfrəsi ətrafında söhbət təşkil edilib, könüllülük fəaliyyəti haqqında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində türkiyəli gənclər Lənkəran şəhərinin tarixi abidələrinə, gəzməli və görməli yerlərinə də böyük maraq göstəriblər. Onlar Tarix-Diyarşünaslıq Muzeyi, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları generalı Həzi Aslanovun şəhərdəki ev-muzeyində olub, Xanbulan gölünün mənzərəsini seyr ediblər. Qonaqlar cənub bölgəsindən zəngin təəssüratla ayrılıblar.

**Zəfər Orucoğlu**

# Gəncəli kuklaçıların yeni tamaşası

Gəncə Dövlət Kukla Teatrında alman xalq nağılı əsasında "Üç donuz balası" tamaşasının məşqlərinə başlanılıb.



Tamaşaya Əməkdar artist Fərmail Paşayev quruluş verir, quruluşçu rəssam Məhəmməd Hacıyevdir.

Personajları Elmar Vəliyev (Naf-naf), Zülfiyyə Əliyeva, Saleh Cümşüdlü (Nuf-nuf), Nərmin Şərifova, Yeganə Məmmədova (Nif-nif), Nahidə Namazova (Qarğa), Səməd Xanəhmədov (Canavar) canlandırırlar.

Uşaqlara zəhmətsevərlik və mübarizə əzmi aşılayan birhissəli kukla tamaşası ilin sonunadək teatrsevərlərə təqdim olunacaq.

# Şəki teatrında "Heç nədən hay-küy"

Şəki Dövlət Dram Teatrında görkəmli ingilis şair-dramaturqu Vilyam Şekspirin "Heç nədən hay-küy" komediyası əsasında tamaşanın məşqləri davam edir.




Teatrın baş rejissoru Əməkdar incəsənət xadimi Mirbala Səlimlinin səhnələşdirdiyi tamaşanın quruluşçu rəssamı Sahib Əhmədov, geyim üzrə rəssamı Dilşad Şirinova, sonetlərə yazılmış mahnıların bəstəkarı Xatirə Orucova, musiqilərin aranjimançısı Firudin Allahverdi, rəqslərin quruluşçu Çingiz Novruzəliyevdir.

Rolları Əməkdar artistlər Xanlar Həşimzadə, Əbülfət Salahov, Rəhim Qocayev, aktyorlar Xəyal Salahov, Pərviz İsmayılov, Rəşid Mirizadə, Aytac İsmayılzadə, Arzu Mustafayeva, Rəsul Məmmədrəhimov və b. ifa edirlər.

Tamaşa ilin sonunadək teatrsevərlərlə görüşəcək.

# Cəbrayıl məktəbində ilk dərs günü

Oktyabrın 9-da Cəbrayıl şəhərindəki Mehdi Mehdizadə adına tam orta məktəbdə ilk dərs günü ilə bağlı tədbir keçirilib.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev, Milli Məclisin deputatı Ceyhun Məmmədov məktəbin pedaqoji kollektivini, şagirdləri və onların valideynlərini təbrik ediblər.

Firudin Qurbanov hələlik 23 nəfərlik pedaqoji heyətin Cəbrayıl sakinlərindən ibarət olmasını sevindirici hal kimi qeyd edərək iki il sonra rayonun bu qocaman məktəbinin 150 illik yubileyinin qeyd ediləcəyini də diqqətə çatdırıb, şagird və müəllimlərə tədris nailiyyətləri arzulayıb.



Vahid Hacıyev bildirib ki, bu gün Cəbrayılda böyük infrastruktur layihələri həyata keçirilir, yeni müəssisələr qurulur. O, Mehdi Mehdizadə adına orta məktəbin şagirdlərinin gələcəkdə həmin müəssisələrin mütəxəssisi olaraq çalışacaqlarına inamını ifadə edib.

Millət vəkili Ceyhun Məmmədov vaxtilə bu məktəbdə təhsil aldığını diqqətə çatdırıb. İşğaldan azad edilən bölgələrimizin yenidən qurulması və dirçəlməsi üçün həyata keçirilən davamlı tədbirləri vurğulayan Ceyhun Məmmədov burada müasir standartlara cavab verən təhsil müəssisələrinin yaradılmasını qürurverici hal kimi qiymətləndirib.

İllər əvvəl təhsil aldığı tədris ocağına rəhbərlik etməkdən qürur duyduğunu deyən məktəbin direktoru Şəlalə Qasımlı da çıxışında sevinc hisslərini bölüşüb.

Digər çıxış edənlər də məktəb kollektivinə uğurlar arzulayıblar.

Sonra məktəbdə yaradılan şəraitlə tanışlıq olub, dərs prosesi izlənilib.

Qeyd edək ki, 960 şagird yerlik məktəbdə 2024–2025-ci tədris ilində təhsil alacaq şagird sayı hələlik 133 nəfərdir. 16 uşaq isə məktəbəhazırlığa cəlb olunub.

# Bölgələrdən müxtəlif səpkili xəbərlər






Ölkə teatrlarının yaradıcılıq əlaqələrinin genişləndirilməsi məqsədilə Qax rayon İlya Çavçavadze adına Dövlət Gürcü Dram Teatrında bir qrup gürcü sənət adamı ilə görüş keçirilib.

Görüşdə Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin (RMİ) rəisi vəzifəsini icra edən Nargilə Qafarova, aparıcı məsləhətçisi Vüsal Həsənov, Qax Rayon İcra Hakimiyyəti başçısının müavini Vəfa Heydərova, Dövlət Gürcü Dram Teatrının direktoru Zita Xəlilova, Gürcüstandan gələn qonaqlar – bəstəkar Mariam Kvaliaşvili, teatrşünas Tika Şvanidze, qonşu ölkənin Xalq artisti Leba Arabidze, aktrisa Nanuli Sarajaşvili, həmçinin bir sıra mədəniyyət xadimləri və gənclər iştirak ediblər.

Çıxışlarda multikultural dəyərlərin qorunmasından, qarşılıqlı mədəni əlaqələrin genişləndirilməsindən söhbət açılıb.

***










Şəki şəhər M.F.Axundzadə adına Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Səməd Vurğun adına şəhər Folklor evi, Lütfəli Abdullayev adına şəhər Diyarşünaslıq klubu və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Şəki regional bölməsinin birgə təşkilatçılığı ilə "Ailə münasibətlərinin cəmiyyətin inkişafında rolu" mövzusunda maarifləndirici tədbir keçirilib. Çıxışlarda ailədaxili problemlər, ailə psixologiyası, valideyn-övlad münasibətlərinin formalaşması, eləcə də ailə dəyərlərinin cəmiyyətdə rolu məsələlərinə toxunulub.

***

Şirvan Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə şəhər məktəbliləri arasında "Yaşıl ətraf mühit və təhlükəsizlik naminə" adlı intellektual yarış keçirilib. Tədbirin məqsədi məktəblilərdə ekoloji maarifləndirməni artırmaq və onları ətraf mühitin qorunmasına töhfə verməyə təşviq etməkdir.

Şirvan şəhər 1 nömrəli tam orta məktəb I, 11 nömrəli tam orta məktəb II, 4 nömrəli tam orta məktəb isə III yerə layiq görülüb. Qaliblərə fəxri fərmanlar və kuboklar təqdim olunub.

***

Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının Uşaq şöbəsi tərəfindən görkəmli rus şairi, yazıçı-dramaturq Mixail Lermontovun (1814-1841) 210 illiyi ilə əlaqədar müəllifin "Aşıq Qərib" əsərinin oxusu keçirilib.

Tədbirdə məlumat verilib ki, cəmi 27 il ömür sürən M.Lermontov bu qısa dövrdə olduqca maraqlı əsərlər yazıb. Oğuz-türk mənşəli "Aşıq Qərib" nağılının Azərbaycan versiyası 1837-ci ildə Lermontov tərəfindən qələmə alınıb. 1846-cı ildə dərc olunduqdan sonra əsər rusdilli ədəbi mühitdə geniş şöhrət qazanıb.

Kitabxana əməkdaşının ucadan oxuduğu əsər uşaqlar tərəfindən maraqla qarşılanıb.

***

Salyan rayonunda şəhidlərin xatirəsinə həsr olunmuş şahmat turniri keçirilir. Salyan rayon Heydər Əliyev Mərkəzi, rayon İcra Hakimiyyəti, Uşaq-Gənclər İdman-Şahmat Məktəbi tərəfindən "Vətən bizim and yerimiz" layihəsi çərçivəsində təşkil edilən turnir oktyabrın 14-də yekunlaşacaq.

***

Ağstafada fərdi təhsilə cəlb olunan uşaqlarla görüş keçirilib. Mədəniyyət Mərkəzində təşkil olunan tədbirdə İcra Hakimiyyətinin başçısı Seymur Orucov, Qazax-Tovuz RMİ-nin rəisi vəzifəsini icra edən Nail Məmmədov, məsul şəxslər, valideynlər, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Qeyd olunub ki, ölkəmizdə sağlamlıq imkanları məhdud uşaqların da keyfiyyətli təhsil almaları daim diqqətdə saxlanılır. Onların asudə vaxtlarının səmərəli təşkili, istedadlarının aşkara çıxarılması məqsədilə zəruri tədbirlər həyata keçirilir.

Nağıl qəhrəmanlarının iştirakı ilə təqdim olunan səhnəciklər və əyləncəli proqramlar uşaqlar tərəfindən sevinclə qarşılanıb.

***

Masallı rayon Mərkəzi Kitabxanasında "Narkomaniya bəşəriyyəti təhdid edən böyük bəladır" adlı tədbir təşkil edilib. Qeyd olunub ki, bəşəri bəla olan narkomaniyanın sərhəd tanımadan genişlənməsi dövlətimizi bütün imkanları səfərbər edərək bu bəlanın kökü kəsilməsi istiqamətində beynəlxalq mübarizəyə qoşulmağa sövq edib. Diqqətə çatdırılıb ki, narkomaniyaya qarşı mübarizəni gücləndirməklə gələcəyimizi, sağlamlığımızı, dövlətçiliyimizi daha da möhkəmləndirmiş oluruq.

***

Masallı rayonunun Boradigah qəsəbəsində şəhid İnqilab Nağıyev adına 2 saylı tam orta məktəbdə "Ailə milli dəyərlərimizin daşıyıcısıdır" mövzusunda maarifləndirici tədbir keçirilib. Tədbir Masallı Tarix-Diyarşünaslıq Muzeyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin regional bölməsi, Lənkəran-Astara RGİİ və Lənkəran-Astara RTİ-nin rayon üzrə sektorunun təşkilatçılığı ilə gerçəkləşib. Yeniyetmələrlə mövzu ətrafında diskussiya aparılıb və onlara kitablar hədiyyə olunub. Yekunda mövzu ilə bağlı videoçarx izlənilib.

**Hazırladı: N.Məmmədli**

# Mingəçevir səhnəsində "Sadıqın toyu" bərpa olunur

Mingəçevir Dövlət Dram Teatrında vaxtilə repertuarda olmuş Sahib İbrahimlinin "Sadıqın toyu" pyesinin tamaşası bərpa edilir.



Tamaşanın bərpa rejissoru teatrın direktoru Əməkdar artist İntiqam Soltan, quruluşçu rəssamı Pakizə Adilbəyli, musiqi tərtibatçısı Elnur Rəsulovdur.

Oktyabrın sonlarında teatrsevərlərə təqdim olunacaq tamaşada rolları Əməkdar artist Şıxı Yaqubov, aktyorlar Afət Əliyeva, Eyvaz Əliyev, Elvin Əkbərli, İlqar Rəhimov, Paşa Salmanov, Asim Məmmədov və b. ifa edirlər.

Qeyd edək ki, tamaşa Mingəçevir səhnəsində 2018-ci ildə Ağdam Dövlət Dram Teatrının baş rejissoru Kərim Həsənlinin quruluşunda hazırlanıb.

Hazırda teatrın repertuar planından əlavə "Ağ-qara" mono-pyesi üzərində də yaradıcılıq işi gedir. İntiqam Soltanın müəllif işi olan əsər ölkəmizin ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP 29) münasibətilə hazırlanır. Bu tamaşa isə noyabrın əvvəllərində təhvil veriləcək.

# "Oğru" Dərbənddə ortaya "çıxdı"

Dərbənd Dövlət Azərbaycan Dram Teatrında Miroslav Mitroviçin "Gecəyarısı soyğunçuluq" pyesinin motivləri əsasında hazırlanan "Oğru" tamaşasının premyerası olub.



Teatrın baş rejissoru Əməkdar artist Sərvər Əliyevin qəzetimizə verdiyi məlumata görə, tamaşanı Rusiyanın Əməkdar artisti Tamerlan Sabanov hazırlayıb, səhnə tərtibatını Dağıstanın Əməkdar rəssamı Dəmir İsaakov verib.

Rolları Aygün Nəcəfova, Şükufə Məlikova (Dağıstanın Əməkdar artisti), Mirzəağa Cum-cum, Osman Mehrabov və Orxan Əliyev oynayırlar.

Baş rejissorun sözlərinə görə, tamaşa tragikomik səhnələrlə zəngindir. Ticarət mərkəzinə vergidən yoxlama gələcəyini eşidən direktor gecəni iş otağında qalıb sənədləri sahmana salmaq fikrinə düşür. Küllü miqdarda pul oğurlayan direktor heç cür əməllərini örtbasdır edə bilmir. Elə bu vaxt ticarət mərkəzinə oğru girir...

Oyun içərisində oyun kimi qurulan tamaşa teatrın cari rüb üçün repertuar planına daxildir.

# “Tağıyev nəslinin Bakıda yaşayan ən yaşlı nümayəndəsi anamdır...”

## İnessa Kərimova: “Fərqli ölkələrdə yaşadığımız üçün bir-birimizi tez-tez görmürük”

Artıq bir neçə ildir ki, böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin anım mərasimi (1 sentyabr) onun qohumları ilə birlikdə Mərdəkan qəsəbəsindəki məzarı başında qeyd edilir. 2-3 il əvvəl belə bir mərasimdə bu nəslin nümayəndələrindən İnessa Kərimova ilə tanış olmuşdum. Hər dəfə də tədbirdən sonra əlaqəmiz kəsilir, bir də növbəti anım tədbirində görüşməli olurduq. Bu dəfə, nəhayət, İnessa xanımla görüşüb söhbətləşə bildik.

*– İnessa xanım, özünüzü bir qədər oxucularımıza tanıdın. Sizin Hacı Zeynalabdin Tağıyev və onun həyat yoldaşı Sona xanımla qohumluğunuz necədir?*

– Sara xanım mənim ulu nənəmdir. Bilirsiniz ki, Tağıyev iki dəfə nikahda olub. İlk nikahda olduğu Zeynəb xanımdan iki oğlu və bir qızı – İsmayıl, Sadiq və Xanım dünyaya gəlib. İkinci dəfə isə general-leytenant Balakişi bəy Ərəblinskinin qızı Sona xanımla ailə həyatı qurub. Bu nikahdan onun iki oğlu və üç qızı – Məhəmməd, İlyas, Leyla, Sara və Sürəyya dünyaya gəlib. Sara xanım da iki dəfə ailə həyatı qurub. İlk həyat yoldaşı Bakının sayılıb-seçilən şəxslərindən Zeynal bəy Səlimxanov olub. Bu evlilikdən Sara xanımın yeganə qız övladı Səfiyyə dünyaya gəlib. Səfiyyə mənim nənəmdir.

Özümə gəlincə isə, demək istərdim ki, ixtisasca həkim-stomatoloqam. Son dövrlərdə inteqrativ təbabətlə maraqlanıram. İnteqrativ təbabət müasir diaqnostika ilə yanaşı, tibbin ən effektiv və qalıcı müalicə metodlarını özündə birləşdirir. Təbabətin müxtəlif sahələri üzrə diplom və sertifikatlarım var.



Bir sözlə, tibb sahəsinin stomatoloji tərəfini inkişaf etdirməklə yanaşı, müxtəlif sahələrinə də bələd olmağa çalışıram.

*– Artıq bir neçə ildir ki, Tağıyevin anım günü bir qədər fərqli qeyd edilir. Bu ideya necə yarandı?*

– Bu ideya mənim nənəm Səfiyyə xanıma məxsusdur. Bilirsiniz ki, nənəm Azərbaycana yalnız 1990-cı ildən sonra qayıda bilib. Pir Həsən ziyarətgahı XV əsrə aiddir və Axund Abuturab burada dəfn ediləndən sonra məqbərə ucaldılıb. Sözümü ona gətirirəm ki, nənəm, ilk növbədə, şəhərdəki öz evlərini (hazırkı Milli Azərbaycan Tarixi Muzeyi – red.) ziyarət edirdi, bir də Mərdəkandakı bağ evlərini. O burada babasının qucağında oynadığı zamanları gözəl xatırlayırdı. Hacı Zeynalabdin Tağıyevin dəfn olunduğu yer o illərdə heç də yaxşı vəziyyətdə deyildi. Məqbərə təbii təsirlərdən yararsız vəziyyətə düşmüşdü. Yalnız 1989-cu ildə A.Mansurovun öz vəsaiti hesabına qoydurduğu bürünc büst yaxşı vəziyyətdə idi. Nənəm bu abidəni və ərazini abadlaşdırmaq üçün aidiyyəti üzrə müraciət edir və bərpa işləri aparılır. Ərazi tam təmir olunaraq normal vəziyyətə salınır. Burada həmçinin Zeynal bəy Səlimxanovun da məzar daşı var.

1990-cı illərin sonlarından nənəm Tağıyevin anım gününü qeyd etməyə başladı. O zaman da bura hökumət nümayəndələri, yaradıcı insanlar, elm xadimləri, Tağıyevin yaratdığı (indiki 123 nömrəli) məktəbin müəllimləri, bir sözlə, çox adam yığışardı. Anım mərasiminin sonunda isə ehsan verilirdi. Bu gün də bu ənənə davam edir. 2005-ci ildə nənəmin vəfatından sonra ailəm – mən və həyat yoldaşım anım gününü təşkil edirik. Həmçinin ənənəyə uyğun olaraq, hər il sentyabrın 1-də saat 11:00-da biz hamımız Pir Həsən ziyarətgahına toplaşaraq Tağıyevin xatirəsini ehtiramla yad edirik.

*– Bir maraqlı məsələni də sizdən öyrənmək istərdik – Zeynal bəy Səlimxanov haqqında. Onun məzarı niyə boşdur?*

– Məzar daşı Sara xanımın istəyi ilə qoyulub. Səlimxanovlar Bakının tanınmış və köklü nəsillərindən olub. Onların çox sayda neft quyuları varmış. Zeynal bəy yaxşı təhsil almış, Moskva Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdi. Sara xanımla ailə qurduqdan sonra o, hüquq və maliyyə işlərində Tağıyevin, necə deyərlər, “sağ əli”, yəni müşaviri olub. Antisovet təbliğatında ittiham edilən Zeynal bəy 1941-ci ilin 28 iyun tarixində həbs olunur. Bir gün sonra isə qızı Səfiyyə xanımı da aparırlar. O zaman onun üç uşağı var idi. Böyüyü 5 yaşında, mənim anam Kamilə 4 yaşında, ən kiçik oğlu isə yaşyarımlıq idi. Səfiyyə xanım 24 saat ərzində şəhəri tərk etməli olur. Onları paroxodla Krasnovodskdan Başqırdıstana sürgün edirlər. Özləri ilə heç nə götürməyə icazə verilmir. Zeynal Səlimxanova ilkin olaraq 8 il iş verildiyi və Həştərxana düşərgəyə göndərildiyi deyilir. Onun həyat hekayəsi həbsxanada başa çatıb. Bu barədə çox az şey məlumdur. KQB arxivi xahişimizlə onun həbsdən sonra Özbəkistana necə köçürülməsi və bir neçə aydan sonra vəfat etməsi barədə foto və qısa məlumat təqdim edib. Ölüm səbəbi və dəfn yeri barədə məlumat qorunmayıb. Deyilənə görə, ağır işgəncələrdən sonra onu dənizə atıblar. 1989-cu ildən sonra isə Səfiyyə xanım və uşaqları bəraət alıblar.



*– Sizin nəslin nümayəndələri və qohumlarınızın bir qismi Rusiyada yaşayır. Tağıyevin digər nəticə və kötücələri ilə münasibətləriniz varmı?*

– Sara xanımın ikinci nikahdan olan uşaqları Rusiyada yaşayırlar. İki oğlu Lev və Oleqin övladları, nəvələri var. Bu gün Hacı Zeynalabdin Tağıyevin ən yaxın qohumları Lev və Oleqdir. Onlar onun nəvələridir. Lev uzun müddət Bakıda yaşayıb. Sonra ailəsi ilə Moskvaya köçdü. Oleq və ailəsi isə həmişə Sankt-Peterburqda yaşayıb. Bu il anım mərasiminə Oleqin qızı Yuliana gəlmişdi. O, Sara xanımın nəvəsidir. Hazırda Yuliananın oğlu Rixard da Bakıdadır. Rixard Sankt-Peterburq Universitetini mühəndislik ixtisası üzrə bitirib. Azərbaycanı çox sevir. Təbii ki, hamımız bir-birimizlə ünsiyyət qururuq. Axı biz o qədər də çox deyilik. Sadəcə, fərqli ölkələrdə yaşadığımız üçün bir-birimizi tez-tez görmürük. İmkan daxilində Bakıya gəlib qohumları ziyarət edir, ilk növbədə, məzarlara baş çəkirlər.

*– Bəs bu gün Tağıyevin nəslindən ən yaşlı nümayəndə olaraq Bakıda yaşayan kimdir?*

– Bu gün Tağıyev nəslinin Bakıda yaşayan ən yaşlı nümayəndəsi mənim anamdır. Səfiyyə xanımın qızı – Sara xanımın nəvəsi Kamilə Abdullayeva. Noyabr ayında anamın 87 yaşı tamam olacaq. Anam Tağıyevin nəticəsi olaraq 4 yaşında öz anasının qucağında sürgün olunub.

*– Maraqlı söhbətə görə təşəkkür edirəm.*

– Mən də fürsətdən istifadə edib qədirbilən xalqımıza, Tağıyevin xatirəsini əziz tutan dövlətimizə və onun irsini araşdıran bütün insanlara təşəkkür edirəm.

**Lalə Azəri**

# Əməkdar rəssam Rza Avşarın yubiley sərgisi

Əməkdar rəssam Rza Avşarın 75 illiyi münasibətilə yaradıcılıq sərgisi keçirilib. “Payız rəngləri” adlı ekspozisiya oktyabrın 4-dən 9-dək Azərbaycan Rəssamlar İttifaqının Vəcihə Səmədova adına sərgi salonunda nümayiş olunub.

Sərginin açılış mərasimində çıxış edən Xalq rəssamı Fərhad Xəlilov Rza Avşarın əsərlərini yüksək qiymətləndirib. Qeyd edib ki, onun yaratdığı əsərlərdə həyat realizminin bədii məcmusu aydın nəzərə çarpır. Fərhad Xəlilov yubilyarın həyat yoldaşı İradə Avşarovanın da tanınmış rəssam olduğunu və onların birgə çalışaraq gözəl sənət əsərləri yaratdıqlarını diqqətə çatdırıb.

Qərbi Azərbaycan İcması idarə heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli rəssamın Vətənimizin təbiətini və insanlarını vəsf edən əsərlərindən söz açıb, onun icmaya hədiyyə etdiyi Rəvanqulu xanın portretinin də dəyərli sənət nümunəsi olduğunu vurğulayıb.

Prezident Administrasiyasının şöbə müdiri sənətşünaslıq üzrə elmlər doktoru, professor Ədalət Vəliyev Rza Avşarın Azərbaycanın tanınmış teatr və kino aktyoru, Xalq artisti Muxtar Avşarovun ailəsində dünyaya göz açdığını bildirərək əlavə edib ki, Avşarlar ailəsinin xəmiri mədəniyyətdən yoğurulub. Bildirib ki, Rza Avşarın yaratdığı mənzərə və natürmortlar ətraf mühitlə, təbiətlə təmasdan doğan hədsiz sevinc və nikbinlik duyğularını ifadə edir, yüksək zövq və böyük sənətkarlıqla çəkdiyi portretlərdə isə görkəmli şəxsiyyətlərimizin xarakterini rənglərin dili ilə məharətlə nümayiş etdirir.

Tədbirdə digər çıxışçılar da Rza Avşarın yaradıcılığından bəhs ediblər. Vurğulanıb ki, müxtəlif janrlarda fırçasını sınayan rəssam hər bir əsərini kövrək, həssas qəlbinin hökmü ilə yaradaraq tamaşaçıya təqdim edir.

Açılışdan sonra sənətsevərlər rəssamın əl işləri ilə yaxından tanış olublar.



Qeyd edək ki, sərginin Bakıdan sonra rəssamın doğulduğu Gəncə şəhərində nümayişi də nəzərdə tutulub.



# “Arada yuxuma ağıllı adamlar girir”

## Bu “Palata”da xəstə yoxdur?!

“6 nömrəli palata” böyük rus yazıçısı Anton Çexovun əsərləri içərisində sarsılaraq oxuduğum nümunədir. Hekayədə, əslində, hamı özündən nə isə tapır. Sözsüz ki, qəhrəmanların arasında ola biləcəkləri (bəlkə də olduqları) ehtimalından başqa. Bu, psixologiyada inkaretmə refleksi kimi qiymətləndirilsə də, bədii mətn kimi hekayə özü fərd olaraq hamımızın nə zamansa baş vurmalı olduğumuz gerçəkliyə dar dəhlizdir. O dəhliz ki, keçməmək üçün ömür yolumuzu dolayı yollardan salırıq.

Əsərə bir neçə il əvvəl yaranan və fəaliyyəti indi gözə dəyməyən müstəqil “Sıfır” teatrındakı gənclərin təqdimatında baxmışdım və bəyənmişdim. Məhdud texniki imkanlar və məkan kasadlığında absurd üslubda qurulan tamaşada ən çox cəlb edən bir heçlik vurğusu idi. Orada istifadə edilən rekvizitlər ekoloji böhranın “tərənnümü” olaraq tullantı məhsullarından hazırlanmış və bizi qəhrəmanlarının verdiyi “dəlidən doğru xəbər”in atmosferinə salmışdı.

Akademik Musiqili Teatrın çoxdan hazırlamağa başladığı və bu mövsümdə ilk premyera kimi (3 oktyabr) təqdim etdiyi “Palata” özündən əvvəlki nümunədən heç də geri qalmır. Amma akademik teatr səhnəsi üçün vacib tələblər var ki, onların pozulmasının üzərindən keçmək olmur...

Tamaşa Əməkdar incəsənət xadimi Bəhram Osmanovun səhnələşdirməsi əsasında hazırlanıb. Janrı “tragikomik düşüncə” kimi müəyyən olunan səhnə əsərinin quruluşçu rejissoru Ər-toğrul Kamal, rejissoru Zaur Əliyev, quruluşçu rəssamı Vüsal Rəhimdir.

Obrazları Ərtoğrul Kamal (Dilənçi), Zaur Əliyev (Yevgeni Xobotov), Nicat Əli (Xəstə), Türkel Tariqpeyma (Professor), Hüseyn Əlili (Andrey Yefimiç), Fərid Rzayev (Nikita), Cəbrayıl Cəbrayılov (Şizofren), eləcə də xor artistləri Rəşad Rüstəmli, Orxan Mirzəyev, balet artisti Hüseyn Heydərli canlandırırlar.

Burada bir haşiyə çıxaraq deyim ki, Bəhram Osmanov özü bu əsərə hələ 1994-cü ildə televiziya tamaşası (AzTV-nin “Sabah” eksperimental yaradıcılıq emalatxanası) kimi quruluş verib.

Bu “Palata”da hadisələr ətrafı köhnə xarabalıqlarla əhatələnmiş xəstəxana küncündə baş verir. Buradakılar unudulmuş, tərk edilmiş xəstələrdir. Onlara kimsə baş çəkmir. Hərəsinin bir ayrı xəstəliyi var: biri gecə-gündüz qüssə içində olur, biri səhərdən-axşama kimi küçələrdə dilənir, hamıya qulluq edir, yoldaşlarına su verir. Özü də bu xidmətləri yazığı gəldiyi üçün və ya humanistliklə etmir. Sadəcə, özünü belə xilas edir.

Gənc xəstə İvan (aktyor N.Əli) bura təqibolunma xəstəliyindən əziyyət çəkdiyi üçün salınıb. Üsyankar, savadlı, mühakimə qabiliyyəti olduğundan barışmaz mövqeyinə görə tez-tez əziyyət çəkir. Hətta cəza olaraq saçları da qırxılır. Nəzarətçi Nikitanın (F.Rzayev) qəzəbinə düçar olur.

Biz onu sonra daha yaxşı tanıyırıq: universitetdə oxuyarkən atasını, sonra isə anasını itirib. Bir gün küçə ilə gedərkən ona elə gəlir ki, kimsə onu təqib edir. Beləcə, onda bu fobiya yaranır və nəticədə bu palatanın sakininə çevrilir.

Hər şeyə laqeyd yanaşan, öz dünyasından xoşbəxt gülüşlər saçaraq “Stanislav ordeni” gözləyən Şizofren (C.Cəbrayılov), digər xəstələr də ətraflı təsvir olunub.

Sözsüz ki, tamaşanın müəyyən mesajları, dərin qatlardan şaxələnən fikir axını da var: cəmiyyətdə dəli-ağıllı anlayışları arasındakı ani keçiddə özünü itirsən, aqibətin bu palatadır.

Məsələn, Yevgeni Xobotov (Z.Əliyev) açıq beyinlə düşünə bilən, daha doğrusu, vəziyyətə etiraz etmək istəyən, düşüncələrini dürüst ifadə edib, hisslərinin sözə çevirən həkimi Andrey Raqini (H.Əlili) dəlixanaya salır.

Bu məqamda Professor (T.Tariqpeyma) ön plana çıxır. O, sevdiyi kişinin xəstələndiyi qənaətinə gəlir və onu palataya salmaq üçün əlindən gələni edir.



Tamaşadakı hadisələr bu məqamdan sonra fərqli məcraya köklənir və biz bir zamanlar xoşbəxt ola bilməyən, illərini bu xəstəxanada keçirməkdən bezən həkimin üsyanını görürük. O, nəzarətçi Nikitaya “Bura çox qaranlıqdır, soyuqdur, qorxuram, işıqları yandır” əmri versə də, səsini xırp kəsəcəyi münasibəti görür və anlayır: Nikita onu da digər xəstələr kimi qamçılayacaq, keçəl edəcək, söyəcək...

Yuxarıda da dediyim kimi, hekayət vahiməli, sarsıdıcıdır. Mürəkkəb xarakterlər, fəlsəfi dialoqlar, ağıllı insanın yalqızlığı bu hekayənin əsas motivləri olduğundan rejissor da müvafiq quruluş həllinə çalışıb. Amma özünün və aktyorlarının gücü çatdığı qədər.

Məsələn, xəstəxananın baş həkimi Raqin aktyor gücünə adekvat deyildi. Hətta bir səhnədə bu elə aydın görünürdü ki, tamaşaçı kimi aktyor özü də o anda orada nə etdiyini tam kəsdirə bilmirdi. Səhnə belədir: həkim bir gün dəliləri ziyarət etməyə gəlir. Xəstə İvanla arasında yaşanan söhbət onu sarsıdır. Ağıl ilə dəlilik arasındakı sərhəd, yaşantı və elm, əzab haqqında düşüncələr, fərqli prizmalarda baxış aktyorun ifasında özünü ifadə edə bilmir. Bəlkə də, rejissorun tragikomik-düşüncə kimi təqdim etdiyi nümunədə biz o kədərli komediyanın işartılarını məhz həkimin obrazı vasitəsilə gözlədiyimizdən (və görə bilmədiyimizdən) xəyal qırıqlığı yaşayırıq.

Başqa bir detal. “Xəstələndirilərək” palata sakininə çevrilən həkim səhnənin ortasında dayanır və dəli köynəyini geyinmək üçün qurşağadək soyunur və tamaşaçı aktyorun xüsusi kremlə bronzlaşdırılmış bədənini görür. Rejissor əsərdən irəli gələn daha təsirli detallar qala-qala bu səhnə ilə nə demək istəyir?

Amma xəstə İvanın saçının qırxılması səhnəsi inanılmaz təsirli idi. Ümumiyyətlə, N.Əli, Z.Əliyev, F.Rzayev, C.Cəbrayılov yaddaqalan oyun sərgilədilər. Xüsusilə C.Cəbrayılov öz planında uğurlu seçim idi.

Amma tamaşanın cütlüyü H.Əlili və T.Tariqpeyma üçün bunu deməyə çətinlik çəkirəm. Onların oyunun alınması üçün əlavə bir neçə “proqon”a ehtiyac var.

Əslində, tamaşanın bitkin alınmamasının bir səbəbi də rejissorun vahid dramaturji xətti düzgün müəyyən etmədən quruluşa qaçmasıdır. Məsələn, musiqi tərtibatından söhbət belə gedə bilməz və bu mənada teatrda musiqi məsələlərinə cavabdeh şəxsi qınamaq olar. Teatr qaydalarına görə, tamaşaların afişasında olmasa da, proqramında musiqi tərtibatçısı mütləq qeyd edilməlidir ki, bu tamaşanın proqramında biz onu tapa bilmədik.

Mümkündür ki, bundan sonrakı abzas emosional təyin təsiri bağışlayacaq, amma onu da deyim. Bu teatrda tamaşa quran yeni nəsil rejissorlar mövcud geniş imkanlardan – xor, balet, orkestr – niyə istifadə edib, tamaşanın ifadə texnikalarını zənginləşdirmirlər? Düzdür, müəyyən əsərlər var ki, hər üçünü bir anda tələb eləmir. Amma nəzərə alaq ki, musiqisi primitiv tərtibat olan tamaşalarda üslub və janr ilə həmahəngliyin pozulması səhnə təfsiri və aktyor ifası baxımından ciddi qüsurdur. Ümid edirik ki, bundan sonra ən azı psixoloji qatlarında dərin düşüncə tələb edən əsərlərin musiqi tərtibatında “qorodok”lar dolanbaclarında azmayacağımız işıqlı nümunələr bizi gözləyir.

İşıqlı dedim, yadıma tamaşanın ən yaddaqalan, ürəkaçan iki məqamı düşdü: işıq və səhnə tərtibatı. Bunda Vüsal Rəhimin əməyi və fərqli yanaşması göz oxşayırdı. Məsələn, fırlanan səhnədə əks istiqamətə gediş, eləcə də “Ədalət nə vaxt gələcək?” sualına “Qırmızı qar yağanda” (balaca qırmızı top yağışı) kimi cavab-təsviri bəyaz dəli köynəklərini və çarmıx, qəfəs anlamlarına eyham olan döşəmə və çarpayını daha ifadəli edir...

**Həmidə Nizamiqızı**

# Görkəmli şərqşünas, ədəbiyyatşünas, pedaqoq

## Aida İmanquliyevanın elmi irsi bu gün də Şərq və Qərb dəyərləri kontekstində tədqiqatlar üçün mühüm zəmindir

Oktyabrın 10-da görkəmli şərqşünas, ədəbiyyatşünas, tərcüməçi, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın anadan olmasının 85-ci ildönümü tamam oldu. İlk azərbaycanlı qadın – ərəbşünas elmlər doktoru, Şərq mədəniyyəti və ədəbiyyatının tədqiqatçısı kimi, eləcə də tərcüməçilik və pedaqoji fəaliyyəti ilə o, Azərbaycanın elm, təhsil, mədəniyyət tarixində mühüm iz qoyub.



Aida Nəsir qızı İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakıda anadan olub. Atası tanınmış jurnalist, pedaqoq Nəsir İmanquliyev uzun müddət "Bakı" ("Baku") qəzetinin baş redaktoru işləyib.

Bakıda 132 saylı orta məktəbi qızıl medalla bitirən Aida İmanquliyeva 1957–1962-ci illərdə Azərbaycan Dövlət Universiteti (indiki BDU) Şərqşünaslıq fakültəsinin ərəb dili şöbəsində ali təhsil alıb. Tələbəlik dövründən yeni dövr ərəb ədəbiyyatına maraq göstərib. 1964-cü ildə "Mixail Nüaymə və XIX əsr qabaqcıl rus ədəbiyyatı" adlı ilk mətbu məqaləsi (Mixail Nüaymə XX əsr Livan yazıçısıdır – red.) "Azərbaycan" jurnalında dərc olunub.

Ali təhsilini fərqlənmə diplomu ilə başa vurduqdan sonra universitetin Şərqşünaslıq fakültəsinin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasında aspiranturaya qəbul olunub. Sonra aspirantura təhsilini Moskvada, SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda (ərəb filologiyası üzrə) davam etdirib. 1966-cı ildə orada "Qələmlər birliyi" və Mixail Nüaymə" adlı namizədlik dissertasiyasını müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi alıb.

Vətənə qayından gənc alim 1966–1976-cı illərdə Azərbaycan Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda (indiki Şərqşünaslıq İnstitutu) kiçik elmi işçi, daha sonra baş elmi işçi vəzifəsində çalışıb. İnstitutun nəşr etdirdiyi "Ərəb filologiyası məsələləri" məcmuəsinin tərtibçisi və redaktoru (1971–1973 və 1979–1981-ci illərdə) olub. İnstitutun ərəb filologiyası şöbəsinin müdiri (1976–1988), elmi işlər üzrə direktor müavini (1988–1991) vəzifələrini icra edib, 1991–1992-ci illərdə həmin institutda direktor vəzifəsində çalışıb. İnstitutun ərəb filologiyası şöbəsinə rəhbərlik etdiyi müddətdə 10 nəfər ərəbşünas namizədlik dissertasiyalarını müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi alıb. Aida xanım həmçinin 1973–1992-ci illərdə BDU-nun Şərqşünaslıq fakültəsində ərəb ədəbiyyatı tarixindən dərs deyib, dissertasiya və diplom işlərinə rəhbərlik edib.

1974-cü ildə filologiya elmləri namizədi M.Qarayevlə birlikdə "İnsan və quş" adlı ərəb ədəbiyyatından hekayələr məcmuəsini tərcümə və nəşr etdirib. 1975-ci ildə "Cübran Xəlil Cübran: həyat və yaradıcılığı" kitabı "Elm" nəşriyyatında çap olunub. 1979-cu ildə M.Nüaymənin bir neçə hekayəsini ərəb dilindən rus dilinə tərcümə edərək Moskvada "Vostoçnı almanax" jurnalında çap etdirib.

1981-ci ildə Azərbaycan Yazıçılar Birliyinin üzvlüyünə qəbul edilib. 1983-cü ildə Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Azərbaycan bölməsi sədrinin müavini olub. Həmin il Moskvanın "Наука" ("Elm") nəşriyyatında "Qələmlər birliyi" və Mixail Nüaymə" kitabı çap olunub. Moskvada görkəmli şərqşünas, akademik İ.Y.Kraçkovskinin 100 illiyinə həsr olunmuş elmi konfransda çıxış edib, Bakıda keçirilən Şərqşünasların II Ümumittifaq konfransında "Ərəb-məhcər ədəbiyyatının əsas istiqamətləri" mövzusunda məruzə edib.

1987-ci ildə Ümumittifaq Şərqşünaslar Cəmiyyəti rəyasət heyətinin üzvü seçilib, Almaniyada dünya şərqşünaslarının II simpoziumunda məruzə ilə çıxış edib.

Elmi tədqiqatlarını davam etdirən Aida İmanquliyeva 1988-ci ildə Tbilisi şəhərində "Yeni ərəb ədəbiyyatının formalaşmasında ədəbi əlaqələrin rolu" adlı doktorluq dissertasiyasını müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsi alıb. 1991-ci ildə SSRİ Nazirlər Soveti yanında fəaliyyət göstərən Ali Attestasiya Komissiyasının qərarı ilə ona "Xarici Asiya və Afrika xalqları ədəbiyyatı" ixtisası üzrə professor elmi adı verilib.



Alimin müasir ərəb ədəbiyyatı ilə bağlı məqalələri toplularda və elmi-kütləvi məcmuələrdə müntəzəm çap olunub. O, "Şərq şairləri Lenin və Sovetlər ölkəsi haqqında" (1970), "Böyük Oktyabr və Şərq xalqlarının milli azadlıq mübarizəsi" (1977), "Sovet Azərbaycanı və xarici Şərq" (1980), "Yaxın Şərq xalqlarının müasir ədəbiyyatında tərəqqi və ictimai ədalət uğrunda mübarizə problemi" (1982), "Yaxın və Orta Şərqdə milli azadlıq hərəkatı məsələləri" (1985), "Şərq filologiyası məsələləri" (1986-1987), "Yaxın Şərq xalqları ədəbiyyatı imperializmə qarşı mübarizədə" (1987), "Xarici Şərqin problemləri: tarix və müasirlik" (1988), "Şərq ədəbiyyatında ənənə və novatorluq" (1988) məqalələr məcmuələrinin redaksiya heyətinin üzvü, müəlliflərindən və redaktorlarından biri olub.

Aida İmanquliyevanın elmi əsərlərində (üç monoqrafiya – "Qələmlər birliyi" və Mixail Nüaymə", "Cübran Xəlil Cübran", "Yeni ərəb ədəbiyyatının korifeyləri"; 70-dən artıq elmi məqalə) Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunur.

Professor Aida İmanquliyeva Azərbaycanda Şərq-Qərb ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir. Alim kimi fəaliyyət dairəsi geniş idi. O, həmçinin ərəb ədəbiyyatından bəzi nümunələri – Mixail Nüaymənin, Mahmud əz-Zahirin, Məhəmməd Dibin, Sahib Camalın, Süheyl İdrisin, Macid Zeyyib Ğənəmanın hekayələrini Azərbaycan dilinə tərcümə edib.



Aida İmanquliyeva həm də unudulmaz müəllim kimi yaddaşlarda əbədiləşib. Tələbələri onu ehtiramla yad edirlər. Şərqşünaslıq İnstitutunun şöbə müdiri tarix üzrə fəlsəfə doktoru Fərda Əsədov: "O zaman Aida xanımın gəlib Şərqşünaslıq fakültəsində mühazirə deməsi o qədər də adi hadisə deyildi. Elmlər Akademiyasından alimlər nadir hallarda gəlib mühazirə oxuyurdular. Gənc nəsillər və təcrübəli mütəxəssislər arasında münasibət də fərqli şəkildə formalaşırdı. Müəllimlərdən "yaz", "qeyd elə", "dedim, yadında saxla" kimi ifadələri eşitmişdik. Aida xanım isə başqa bir mədəniyyət gətirdi. Yəni o, elə bil elmi fəaliyyətini auditoriyada davam etdirirdi və bizi mübahisələrə, müzakirələrə dəvət edirdi. Bəzi hallarda da elə olurdu ki, nəyinsə üstündə təkid etmək, öz fikrini yuxarıdan aşağı yönəltmək əvəzinə biz onun tərəfindən müəyyən güzəşt, müəyyən başqa fikirlə razılaşmaq kimi halları görürdük".

Görkəmli alim, pedaqoq 1992-ci il sentyabrın 19-da Bakıda dünyasını dəyişib.

Aida İmanquliyevanın elmi irsi ölkəmizdə Şərq-Qərb mədəniyyətlərarası dialoqu, ortaq mənəvi dəyərlər kontekstində tədqiqatlar üçün mühüm zəmin təşkil edir. Bu mövzuda Bakıda beynəlxalq konfrans və simpoziumlar keçirilib. Onun elmi əsərləri müxtəlif dillərə tərcümə olunub.

# "Mahmud Kaşğari "Divan"ı və çağdaş türk dilləri" kitabı çapdan çıxıb




AMEA Nəsimi adına Dilçilik İnstitutunun şöbə müdiri filologiya elmləri doktoru, professor İsmayıl Kazımovun "Mahmud Kaşğari "Divan"ı və çağdaş türk dilləri" kitabı çap olunub.

Kitabda Mahmud Kaşğarinin "Divan"ında sözün fonetik, qrammatik, leksik-semantik yöndə tarixi-genetik və struktur-funksional xüsusiyyətləri nəzərdən keçirilib. Əsərdə "Divan"ın türkoloji dilçiliyin formalaşması və inkişafındakı rolu, çağdaş türk dillərinə, dialektlərinə təsiri öyrənilib. Kitab 3 bölmədən ibarətdir. Bölmələrdə "Divan"ın fonetik, leksik və morfoloji özəllikləri araşdırılıb.

Nəşrin redaktoru professor Nadir Məmmədli, rəyçiləri filologiya elmləri doktoru Şəbnəm Həsənli-Qəribova və dosent Qətibə Quliyevadır.

# "Çingiz epoxasında türk xalqlarının dövlətçiliyi"

## Türk tarixi konqresi keçirilib

Qazaxıstanın Almatı şəhərində "Çingiz epoxasında türk xalqlarının dövlətçiliyi" mövzusunda II Türk Dövlətçiliyi Tarixi Konqresi keçirilib.

Tədbir Türk Akademiyası, Türkiyənin Atatürk Mədəniyyət, Dil və Tarix Ali Şurası yanında Türk Tarix Cəmiyyəti və Qazaxıstanın Cuçi Ulusu Araşdırmaları İnstitutu tərəfindən təşkil edilib.

Konqres Türk dünyasının və bütövlükdə Avrasiyanın tarixində mühüm rol olmuş Cuçi Ulusunun yaranmasının 800 illiyinə həsr olunub.

Türkdilli ölkələrin elm xadimləri və diplomatları ilə yanaşı, Monqolustan, Koreya, Rusiya, ABŞ, Avstriya, Bolqarıstan və Ukraynadan nümayəndələrin də qatıldığı tədbirin açılışında Türk Akademiyasının prezidenti Şahin Mustafayev, Türk Tarix Qurumunun başqanı Yüksel Özgen və Cuçi Ulusu Araşdırmaları İnstitutunun direktoru Caksılık Sabitov çıxış ediblər.

Türk Akademiyasının prezidenti deyib: "Tarix milli kimliyin əsası və xalqların mövcudluğunun ali məqsədinin təzahürü kimi ortaq dəyərləri tapmağa kömək edir. Eyni zamanda biz görürük ki, tarixi faktların təhrif olunması millətlər, o cümlədən qardaş xalqlar arasında münaqişələrə səbəb ola bilər. Bizim vəzifəmiz bu manipulyasiyaların qarşısını almaq və bütün türk xalqlarına aydın və yaxın olan elmi əsaslar yaratmaqdır".

Xatırladaq ki, ilk konqres ötən il Çolpon-Atada (Qırğızıstan) keçirilib və Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr olunub.

Builki konqresin diqqət mərkəzində türk xalqlarının tarixinə və mədəniyyətinə mühüm təsir göstərən Çingizlər dövrü olub. İki gün davam edən tədbirdə Çingizlər dövründə türk dövlətlərinin tarixinin müxtəlif aspektlərinə dair məruzələr dinlənilib.

Konqresin yekun bəyannaməsində tarix, arxeologiya, etnoqrafiya, türkologiya və populyasiya genetikası kimi elmin müxtəlif sahələrində birgə tədqiqatların zəruriliyi qeyd olunur. Beynəlxalq tədbirdə təqdim olunan məruzələrin əhəmiyyəti nəzərə alınaraq Türk Akademiyası tərəfindən elmi toplu kimi nəşrinə qərar verilib.

# Mənzilə çatmayan ömür və sənət karvanı

Milli kino sənətimizin inkişafında əməyi olan sənətkarlarımızdan biri də yazıçı, şair, kinodramaturq, jurnalist Əli Qafarovdur. Tanınmış sənətkar əsərlərində milli-mənəvi dəyərlərimiz, daş yaddaşlarımız olan tarix-memarlıq abidələrimizə işıq salıb, onların bərpası, qorunması və təbliği üçün səy göstərib.

Əli Hüseyn oğlu Qafarov 16 oktyabr 1935-ci ildə Ukraynanın Dnepropetrovsk vilayətində dünyaya göz açıb. Bir müddət sonra valideynləri Lənkəran şəhərinə köçür. Əli 1954-cü ildə orta məktəbi müvəffəqiyyətlə başa vurub indiki Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə qəbul olunur. Universitetin ikinci kursunu bitirəndən sonra, 1956-cı ildə Moskvaya – Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Ssenari fakültəsində təhsil almağa göndərilir. Bir müddət sonra o, kurs yoldaşları ilə birgə gizli gənclər dərnəyinə üzv olur. Sonra bu dərnəyin təşkilatçılarından biri kimi ittiham olunur və cəzalandırılır. 10 il Sibir düşərgələrində cəza çəkir. İki il Ümumittifaq "Hidroenerjilayihə" İnstitutunda, Anqarsk geoloji ekspedisiyasında topoqrafik və qazma dəstələrində fəhlə işləyir. Bu illər Əli Qafarov üçün sərt həyat məktəbi olur. Sonralar respublika və ümumittifaq dövri nəşrlərində Əli Qafarovun "Sibir" hekayələri işıq üzü görür. Beləliklə, o, ədəbi ictimaiyyətin diqqətini özünə cəlb edir.

Əli Qafarovun həyat və fəaliyyətini tədqiq edən kinoşünas, Əməkdar incəsənət xadimi Aydın Kazımzadə yazır ki, o, Vətənə qayıtdıqdan sonra qələmini jurnalistikada sınayır. 1962-ci ildə "Bakinski raboçi" qəzetində ədəbi işçi kimi fəaliyyətə başlayır. Ancaq kinodramaturq olmaq arzusu onu rahat buraxmır və bu sahədə təhsil almağa qərar verir. 1968-ci ildə Moskvada Ali rejissorluq və ssenaristlər kursuna daxil olur. Məşhur kinodramaturq Aleksey Kaplerin emalatxanasında təhsil alır.



Əli Qafarov "Azərbaycanfilm" kinostudiyasının çəkdiyi "Qızıl qaz", "Çarvadarların izi ilə" bədii və "Mahnıya həsr olunmuş həyat", "Sevinc sarayı", "Dirçəldilmiş torpaq", "Odla təmasda", "Xəzər Atlantidası" və s. sənədli filmlərin ssenarilərini yazır. O, "Çarvadarların izi ilə" (rejissor Tofiq İsmayılov) bədii televiziya filminin ssenarisini Xalq yazıçısı İlyas Əfəndiyevin "Körpüsalanlar" romanının motivləri əsasında qələmə alıb. Keçmişlərdə çarvadar çətin və təhlükəli dağ yolları ilə yerli sənətkarların istehsal etdikləri malları uzaq ölkələrə aparan bacarıqlı tacirlərə deyilib. Filmin qəhrəmanı Adil inşaatçı mühəndisdir. Doğma kəndlərinə yol çəkmək istəyir. Yolun tikintisi ilə bağlı təklif rayon rəhbərliyi tərəfindən bəyənilir. Lakin mühəndis bu işdə bir məsələni diqqətdən qaçırır. Adil vəzifəsindən istifadə edərək yolu tez təhvil vermək istəyir. Planı yerinə yetirmək üçün yol üstündəki tarixi abidə və insanların müqəddəs hesab etdikləri türbələri uçurmaq fikrinə düşür. Adilin bu hərəkəti əhalinin narazılığına səbəb olur. Yolçəkənlərlə sakinlər arasında ciddi münaqişə baş verir...

Rejissor T.İsmayılov xatirələr kitabında film haqqında yazıb: "Filmin əsas ideyası kəndimizin keçmişini, onun ab-havasını ekranda canlandırmaq, illərin dəyərli yadigarı olan, tarixi memarlıq abidələrimizi üzə çıxarmaq və qorumaqdır. Çünki keçmişdən yadigar qalan hər daşa, gözoxşayan hər bir gözəlliyə ehtiram, qayğı bizim vətəndaşlıq borcumuzdur".

Rejissor S.Bədəlovun 1969-cu ildə lentə aldığı "Mahnıya həsr olunmuş həyat" filmi görkəmli opera müğənnisi, SSRİ Xalq artisti Şövkət Məmmədovadan bəhs edir. Filmdə diktor mətni yoxdur. Filmi müğənninin özü şərh edir. Bu nə qədər çətin olsa da, uğurlu alınıb. Filmdə sənətkarın həyat və yaradıcılığı öz parlaqlığı ilə canlanır.

Ə.Qafarov və Ə.Muğanlının ssenariləri əsasında rejissor Y.Əfəndiyevin lentə aldığı "Odla təmasda" filmi Azərbaycan xalqının digər xalqlarla dostluq və əməkdaşlığına həsr olunub. İlk kadrlarda Bakı haqqında danışılır. Bildirilir ki, şəhərin min ildən də artıq yaşı var. Sonrakı kadrlarda məlum olur ki, Sumqayıtda hazırlanan borulardan Bakı neftçiləri Hindistan torpağında qazdıqları quyularda istifadə ediblər. Filmdə Bağdadda yaradılan ilk milli balet məktəbi ilə tanış oluruq. Həmin məktəbə SSRİ Xalq artisti Qəmər Almaszadə rəhbərlik edir...

Tanınmış kinodramaturq həyatdan vaxtsız köçür. Yaradıcılığının ən bəhrəli çağında – 1979-cu ildə, 44 yaşında faciəli şəkildə həlak olur.

Yazıçının vəfatından bir müddət sonra hekayə və povestlərindən ibarət "Qızıl qaz" adlı kitabı 1984-cü ildə Moskvada işıq üzü görüb.

**Savalan Fərəcov**

# Milli Kitabxanada Naxçıvan kitabxanaçıları üçün təcrübə

Naxçıvan Muxtar Respublikası (MR) Mədəniyyət Nazirliyinin tabeliyində olan kitabxanaların əməkdaşları 8-10 oktyabr tarixlərində Milli Kitabxanada təcrübə keçiblər.



Milli Kitabxananın direktoru professor Kərim Tahirov onlarla görüşdə informasiya-kommunikasiya texnologiyalarının kitabxana işinə tətbiqinin əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, Milli Kitabxana hər zaman bu xüsusda ölkəmizin digər bölgələri kimi, Naxçıvandakı kitabxanalara da kömək etməyə hazırdır.

Naxçıvan MR Mədəniyyət Nazirliyi Mədəniyyət və mədəni irs şöbəsinin müdiri Pərvin Həsənov elektron kitabxanaların qurulmasında yaranan çətinlikləri diqqətə çatdırıb. O, proqram təminatı və tətbiqi ilə bağlı, həmçinin kitabxana işinin ayrı-ayrı sahələri ilə əlaqədar təlimlərə və işin müasir tələblərə cavab verəcək şəkildə təşkilində köməyə ehtiyac duyulduğunu deyib.

Üçgünlük təcrübə proqramında Naxçıvan MR Mədəniyyət Nazirliyi Aparatından, M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası, A.Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası, Naxçıvan şəhər və Culfa, Babək, Sədərək, Şahbuz, Şərur, Kəngərli rayon mərkəzləşdirilmiş kitabxana sistemlərindən 13 nəfər mütəxəssis iştirak edib.

# “Elçin və kino” kitabının təqdimatı olub





**Oktyabrın 8-də X Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində Mədəniyyət Nazirliyinin dəstəyi ilə “Elçin və kino” kitabının təqdimatı keçirilib.**

Təqdimat mərasimində Xalq yazıçısı Elçinin əsərləri əsasında çəkilmiş filmlərdən söhbət açılıb. Qeyd edilib ki, kitabda yazıçının kino sahəsinə verdiyi töhfələr, onun ssenariləri əsasında çəkilmiş filmlər və bu ekran əsərlərinin qazandığı uğurlar ətraflı şəkildə əksini tapıb. Kitabın müəllifi Nərgiz Cabbarlıdır.

Xalq yazıçısı Elçin bu kitabın onun yaradıcılıq yolunun əhəmiyyətli bir hissəsini təşkil etdiyini diqqətə çatdırıb. O, ssenari müəllifi kimi çalışdığı vaxtları xatırlayaraq, həmin illərin Azərbaycan kinosunun inkişafında mühüm mərhələlərdən biri olduğunu bildirib. Vurğulayıb ki, ədəbiyyatda təsvir etməyə çalışdığı insan həyatı və talelərinin kinoda vizual və daha təsirli formada əks etdirilməsi ona böyük zövq verir. O, həmçinin filmlərin yaranma prosesi, çəkilişlər və rejissorlarla əməkdaşlıq təcrübəsi barədə xatirələrini bölüşüb və kinonun ədəbiyyatla sıx əlaqəli bir sənət olduğunu deyib.

Tədbirdə çıxış edənlər Elçinin çoxşaxəli yaradıcılığından söz açaraq, onun ssenari müəllifi olduğu filmlərin Azərbaycan kino tarixində mühüm yeri olduğunu qeyd ediblər. Bildirilib ki, yazıçının kino üçün yazılmış əsərləri insan talelərinə, sosial problemlərə dərin nüfuz edən, həyatı əks etdirən təsirli nümunələrdir.

Təqdim olunan kitabın Elçinin yaradıcılığı ilə tanışlıq, onun əsərlərinin təhlili və kino sənəti üçün önəmi vurğulanıb.

Qeyd edək ki, Xalq yazıçısı Elçinin ssenariləri əsasında “Baladadaşın ilk məhəbbəti” (“Ömrün səhifələri” kinoalmanaxından), “Arxadan vurulan zərbə”, “Bağ mövsümü”, “Gümüşü furqon”, “Sahilsiz gecə”, “Mahmud və Məryəm” və s. filmlər çəkilib.

# X Bakı Beynəlxalq Kitab Sərgisinin son tədbiri

Oktyabrın 8-də Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə X Bakı Beynəlxalq Kitab Sərgisinin bağlanış mərasimi keçirilib.

Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli yeddi gün ərzində sərgidə ümumilikdə 327 tədbirin keçirildiyini, məşhur yazarların kitab təqdimatlarının və oxucularla görüşlərinin təşkil olunduğunu deyib. O, ötən illə müqayisədə builki sərgidə yeni naşirlərin də iştirak etdiyini diqqətə çatdırıb.

Mərasimdə X Bakı Beynəlxalq Kitab Sərgisində xüsusi fəallığı, stendlərin tərtibatı, nəşrlərin zənginliyi və s. meyarlara görə seçilən nəşriyyatlara, eləcə də yazarlara sertifikatlar təqdim edilib.

“Ən yaxşı kitab” nominasiyası üzrə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun “Füzuli kitabxanası” seriyası, “Ən kreativ stend tərtibatı” nominasiyası üzrə “Təhsil Nəşriyyat-Poliqrafiya” MMC, “Everest” və “Çinar” nəşriyyatlarının stendi, “Ən çox oxunan uşaq yazarı” nominasiyası üzrə Bəhram Bağırzadə, “Ən çox oxunan müəllif” nominasiyası üzrə Elxan Elatlı, “Ən fəal nəşriyyat” nominasiyası üzrə “Qanun” və “TEAS Press” nəşriyyatları təltif olunub.




Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC) və İctimai Televiziya və Radio Yayımları Şirkətinə sərginin “Media tərəfdaşı” sertifikatları təqdim olunub.

# Həqiqət yolçularının sirləri

## Seyid Yəhya Bakuvi haqqında kitab da sərgidə təqdim olunub

**Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən X Bakı Beynəlxalq Kitab Sərgisinin (2–8 oktyabr) son gününün tədbirlərindən biri də şərqşünas Cəfər Həsənovun “Seyid Yəhya Bakuvi. Əsraru Talibin və ya həqiqət yolçularının sirləri” kitabının təqdimatı olub.**

Müəllif görkəmli alim Seyid Yəhya Bakuvi haqqında ətraflı məlumat verib, kitabın ərsəyə gəlməsindən söz açıb. Qeyd edilib ki, kitabda sufi yolunun əsas prinsipləri və S.Y.Bakuvi məktəbinin təlimləri ətraflı araşdırılıb.

Müəllif vurğulayıb ki, Azərbaycan tarixində sufi alimlər çox olub: “Lakin onların arasında dünyada ən çox tanınan şəxsiyyət Seyid Yəhya Bakuvidir. Araşdırmalarım zamanı qarşıma çoxlu mənbələr çıxdı və bu məlumatların hər biri Seyid Yəhya Bakuvi irsinin nə qədər dəyərli olduğunu bir daha sübut etdi. Məhz buna görə də mənim üçün vacib bir vəzifə oldu ki, bu böyük sufi aliminin yaradıcılığını Azərbaycan ictimaiyyətinə, eləcə də dünyaya təqdim edim”.



Azərbaycanın məşhur övliyası və İslamda ən böyük sufi təriqətlərindən birinin banisi Seyid Yəhya Bakuvinin dövrümüzə bir neçə əsəri gəlib çıxıb: “Bunlar təsəvvüf dairələrində ən çox oxunan və bu gün də təsəvvüf məktəblərində istifadə edilən əsərlərdir. “Əsraru Talibin” əsərində İslamın həqiqətləri açıqlanmaqla yanaşı, təsəvvüfün əsasları və xəlvətiyyə təriqətinin inanc sistemi izah edilib. Əsər kəlimeyi-tövhidin hərflərinin sayına uyğun olaraq 24 fəslə ayrılıb. Seyid Yəhya Bakuvi hər hansı bir mövzunu izah edərkən əvvəlcə Qurani-Kərim nuru, daha sonra hədis işığı, lazım gəldikdə isə övliyaların və İslamın dahi şəxsiyyətlərinin hikmətli sözləri ilə əsərə xüsusi rəng qatıb”.

C.Həsənov bildirib ki, S.Y.Bakuvi kimi sufi alimlərin əsərləri yalnız dini və fəlsəfi mövzularda deyil, həm də mənəvi inkişaf və insanın özünüdərketməsi məsələlərində böyük əhəmiyyət kəsb edir.

# “Qafqazın poetik abidəsi” – Lermontovun 210 illiyinə töhfə

Oktyabrın 15-də dünya ədəbiyyatı tarixində ən gənc klassiklərdən birinin – taleyin cəmi 13 illik yaradıcılıq nəsib etdiyi Mixail Lermontovun (1814–1841) anadan olmasının 210 ili tamam olur. Qısa ömür və yaradıcılıq fəaliyyətində Lermontovun poeziya, nəsr və dramaturgiya sahəsində yaratdığı əsərlər onun adını dahi yazıçılar sırasına həkk edib.




Rusiya ədəbiyyatına dair silsilə kitabların müəllifi Reyhan Mirzəzadənin bu yaxınlarda çapdan çıxan “Qafqazın poetik abidəsi” kitabı M.Lermontovun 210 illiyinə töhfədir.

Kitabda Lermontovun mübarizə dolu həyatı, xəlqilik prinsipləri ilə zəngin yaradıcılığı, ömrünün Qafqazla bağlı səhifələri əksini tapıb, bu yerlərin əsrarəngiz təbiətinə, Qafqaz xalqlarına həsr etdiyi əsərlərə, həmçinin azərbaycanlı, eləcə də digər ölkə şairlərinin onun haqqında qələmə aldığı şeirlərə yer verilib.

Müəllif Tiflisdə Lermontovun gənc və istedadlı azərbaycanlı şair, yazıçı Mirzə Fətəli Axundzadə ilə görüşü və səmimi söhbətlərini də maraqlı detallarla təqdim edir.

Lermontov yaradıcılığı XIX əsr rus ədəbiyyatının yeni yüksəliş dövrü olub və özündən sonrakı rus şair və yazıçılarına böyük təsir göstərib. Lermontovun əsərləri rəssamlıq, teatr və kino sahəsində geniş əks etdirilib, poeziyası opera və romans yaradıcılığı üçün ədəbi sərvət olub, şeirlərinin bir çoxu xalq nəğmələrinə çevrilib.

Azərbaycanda da dahi rus şairinin yaradıcılığına rəğbət var. O, ömrünün Qafqazda keçən dövründə Azərbaycanda da olub, bu diyarın xalqlarının həyat tərzi, adət-ənənəsi, zəngin folkloru ilə yaxından tanış olub. Lermontovun “Zəmanəmizin qəhrəmanı” romanı, “İsmayıl bəy”, “Mtsıri”, “Demon” poemaları və bir çox şeirləri Qafqaz mövzusu ilə bağlıdır.

# Türk Akademiyasının yeni nəşrləri




Qazaxıstanın Almatı şəhərindəki Əl-Fərabi adına Qazaxıstan Milli Universitetində Türk Akademiyasının (mənzil-qərargahı Astanada yerləşir) nəşr etdirdiyi kitabların təqdimatı olub.

Mərasimdə Türk Akademiyasının vitse-prezidenti Ashat Kesikbayev, Əl-Fərabi adına Qazaxıstan Milli Universitetinin prorektoru Erkin Duseynov, Türkiyənin Almatıdakı baş konsulu Evren Muderrisoğlu, həmçinin türkdilli ölkələrdən alimlər iştirak ediblər.

Təqdim olunan nəşrlər arasında Krım-tatar şairi, görkəmli dilçi alim, türkoloq, elmi fəaliyyətinin əsas hissəsi Azərbaycanda keçən Bəkir Çobanzadənin qazax dilinə ilk dəfə tərcümə edilmiş “Tiltutka” seçilmiş əsərlər toplusu da var. Kitaba yazıçının uzun illər apardığı araşdırmalar nəticəsində ərsəyə gətirdiyi əsərlər daxil edilib.

Həmçinin Türk Akademiyasının 30-dan çox sahəni əhatə edən “Türk dillərinin terminoloji lüğətləri” kitabının nəşri layihəsi təqdim olunub. Növbəti nəşr iqtisadiyyat, tibb və hərbi məsələlərə həsr olunan lüğətlərdən ibarətdir. Türk ölkələrindən mütəxəssislərin iştirak etdiyi bu layihə üzərində iş elmi terminologiyanın standartlaşdırılması və türk ölkələri alimlərinin bir araya gəlməsi istiqamətində mühüm addımdır.

Bundan əlavə, Əl-Fərabi adına Qazaxıstan Milli Universitetinin rektoru Canseyit Tuymebayevin monoqrafiyası təqdim olunub. Əsər türk-monqol dili paralellərinin tədqiqatçılarına yeni üfüqlər açır.

Türk Akademiyasının vitse-prezidenti Ashat Kesikbayev iştirakçılara qurumun prezidenti Şahin Mustafayevin salamlarını çatdırıb. O, yeni nəşrlərin əhəmiyyətini vurğulayaraq, onların, sadəcə, elmi əsər deyil, eyni zamanda türk xalqlarının mədəni-tarixi irsinin qorunub saxlanılması və artırılması üzrə ümumi işə sanballı töhfə olduğunu qeyd edib.

Türk Akademiyasının 2024-cü il üzrə nəşrlər planına ümumilikdə 60-dan çox kitab daxildir.

## Xatirə təqvimi — 12 – 15 oktyabr

### Azərbaycan

**12 oktyabr 1938** – Tanınmış kinooperator Şərif İsmayıl oğlu Şərifov (1938 – 26.9.2007) Bakıda anadan olub. Filmləri: “Yol əhvalatı”, “Əzablı yollar”, “Şir evdən getdi”, “Qərib cinlər diyarında” və s.

**12 oktyabr 1974** – Əməkdar incəsənət xadimi, kamança ifaçısı, bəstəkar Qılman Balaməmməd oğlu Salahov (16.3.1906 – 1974) vəfat edib. Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının rəhbəri olub.

**12 oktyabr 1990** – Əməkdar mədəniyyət işçisi, aşıq Mikayıl Cabbar oğlu Azaflı (Zeynalov; 21.3.1924 – 1990) vəfat edib. “Azaflı dübeyti”, “Azaflı gözəlləməsi”, “Azaflı gəraylısı” kimi aşıq havalarının müəllifidir.

**12 oktyabr 2021** – Prezident İlham Əliyev Xalq rəssamı, milli xalça sənətinin görkəmli nümayəndəsi Kamil Əliyevin 100 illik yubileyi haqqında sərəncam imzalayıb.

**13 oktyabr 1918** – Əməkdar incəsənət xadimi, rəssam Lətif Əbdülbağı oğlu Feyzullayev (1918 – 25.3.1987) anadan olub. Abşeron təbiətinin koloriti, Xəzər neftçiləri ilə bağlı maraqlı əsərlərin müəllifidir.

**13 oktyabr 1938** – Əməkdar artist Hamlet Ağadadaş oğlu Qurbanov (1938 – 15.11.1995) anadan olub. Akademik Milli Dram Teatrında çalışıb, filmlərdə (“Dədə Qorqud”, “O dünyadan salam” və s.), televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb.

**13 oktyabr 1940** – Bəstəkar, Əməkdar incəsənət xadimi Rəşid Şəfəq (Rəşid Camal oğlu Əliyev; 1940 – 24.8.2017) Bakıda anadan olub. “Birsaatlıq xəlifəlik”, “Baş tutmayan hiylə” operettalarının, uşaqlar üçün musiqili səhnə əsərlərinin (“Tülkü, tülkü, tünbəki...”), mahnıların müəllifidir.

**13 oktyabr 1940** – Əməkdar incəsənət xadimi, kinoşünas İmran Musa oğlu Xəlilov (1940 – 18.7.2000) anadan olub. Mədəniyyət və İncəsənət Universitetində dərs deyib.

**12 oktyabr 1967** – Tanınmış aktyor, teatr xadimi İbrahim Hüseyn oğlu İsfahanlı (Hüseynzadə; 1897–1967) vəfat edib. Tiflis Azərbaycan Dram Teatrının baş rejissoru olub, “Gürcüstanın Xalq artisti” adına layiq görülüb. “Böyük dayaq” filmində (Yarməmməd) çəkilib.

**13 oktyabr 1974** – Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı, Dövlət mükafatı laureatı Səttar Bəhlul oğlu Bəhlulzadə (15.12.1909 – 1974) vəfat edib. Əsərləri müxtəlif xarici muzeylərin eksponatları sırasındadır.

**13 oktyabr 1999** – Prezident Heydər Əliyevin iştirakı ilə Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərindəki ev-muzeyinin açılış mərasimi keçirilib.

**13 oktyabr 2011** – Prezident İlham Əliyev Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndəsi, Dövlət mükafatları laureatı Tahir Salahovun ev-muzeyinin yaradılması haqqında sərəncam imzalayıb.

**14 oktyabr 1875** – Maarif xadimi, naşir Əlisgəndər Hacıbaba oğlu Cəfərzadə (1875–1941) Bakıda doğulub. 1906–1908-ci illərdə “Dəbistan” adlı ilk milli pedaqoji jurnalın naşiri və mühərriri olub.

**14 oktyabr 1912** – Heykəltaraş, Əməkdar incəsənət xadimi Həyat Həmdulla qızı Abdullayeva (1912 – 21.4.2006) Dərbənd şəhərində anadan olub. Şuşada M.P.Vaqifin abidəsi, X.Natəvanın büstü və s. əsərlərin müəllifidir.

**14 oktyabr 1916** – Əməkdar artist Süsən Hacı Aslan qızı Məcidova (1916 – 24.5.1985) anadan olub. Gənc Tamaşaçılar Teatrında çalışıb, “Bir cənub şəhərində”, “Bizim Cəbiş müəllim” və s. filmlərdə çəkilib.

**14 oktyabr 1933** – Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Xalq şairi Məmməd Araz (Məmməd İnfil oğlu İbrahimov; 1933 – 2.12.2004) Naxçıvan MR Şahbuz rayonunun Nursu kəndində doğulub. Vətənpərvərlik, milli ruha sayğı şairin əsərlərinin aparıcı mövzusudur. Rus şairlərinin əsərlərini dilimizə tərcümə edib.

**14 oktyabr 2015** – Prezident İlham Əliyev Azərbaycan professional teatrının banilərindən biri, görkəmli aktyor Cahangir Zeynalovun 150 illik yubileyi haqqında sərəncam imzalayıb.

**15 oktyabr 1910** – Tanınmış kinorejissor, Əməkdar incəsənət xadimi Hüseyn Əli oğlu Seyidzadə (1910 – 2.6.1979) İrəvan şəhərində anadan olub. “O olmasın, bu olsun”, “Koroğlu”, “Dəli Kür”, “Yenilməz batalyon”, “Qayınana” filmlərini çəkib.

**15 oktyabr 1933** – Əməkdar mədəniyyət işçisi, kino təşkilatçısı Nurəddin Xeyrulla oğlu Babayev (1933–2012) anadan olub.

**15 oktyabr 1928** – Xalq rəssamı Yusif İsmayıl oğlu Hüseynov (1928 – 1.9.2009) Bakıda doğulub. Yaradıcılığı kitab və dəzgah qrafikası, siyasi plakatlar və rəngkarlıq əsərləri ilə zəngindir. 1977–1987-ci illərdə Azərbaycan Rəssamlar İttifaqı İdarə heyətinin sədri olub.

**15 oktyabr 1932** – Şair Hafiz Həbib oğlu Baxış (1932 – 7.9.1989) Zəngəzur mahalı Qafan bölgəsinin Yuxarı Kirətağ kəndində doğulub. Sözlərinə populyar mahnılar bəstələnib.

**15 oktyabr 1938** – Azərbaycan teatr tarixində xidmətləri olmuş tanınmış aktrisa Panfiliya Nikolayevna Tanailidi (1891–1938) repressiya edilərək güllələnib. Milliyyətcə yunandır. Tiflis Azərbaycan teatrında, 1925-ci ildən Akademik Dram Teatrında çalışıb.

**15 oktyabr 1946** – Əməkdar mədəniyyət işçisi, kinoşünas, kino təşkilatçısı Abbas İbrahim oğlu Əliyev (1946–2008) anadan olub.

**15 oktyabr 1951** – Əməkdar artist, aktyor, rejissor Zilli Yunus oğlu Namazov (1951 – 27.12.2021) anadan olub. “Azərbaycanfilm” kinostudiyasında çalışıb.

**15 oktyabr 1988** – Kristalloqrafiya sahəsində məşhur alim, Azərbaycan EA-nın müxbir üzvü Xudu Surxay oğlu Məmmədov (14.12.1927 – 1988) vəfat edib. Sənətşünaslıqla bağlı yazıların, “Naxışların yaddaşı”, “Qoşa qanad” və s. kitabların müəllifidir.

**15 oktyabr 1996** – Tanınmış diktor, Əməkdar artist Gültəkin Əjdər qızı Cabbarlı (9.3.1929 – 1996) vəfat edib.

**15 oktyabr 2016** – Əməkdar artist, tanınmış rəqqas Kamil Hənifə oğlu Dadaşov (26.9.1936 – 2016) vəfat edib.

**15 oktyabr 2022** – Əməkdar mədəniyyət işçisi, tanınmış jurnalist Şakir Hənifə oğlu Yaqubov (25.2.1951 – 2022) vəfat edib.

### Dünya

**12 oktyabr 1896** – İtalyan şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1975) laureatı Eugenio Montale (Eugenio Montale; 1896–1981) anadan olub.

**12 oktyabr 1924** – Fransız yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1921) laureatı Anatol Frans (Anatole France, əsl adı François-Anatole Thibault; 16.4.1844 – 1924) vəfat edib. Əsərləri: “Müasir tarix” silsilə romanları, “Mələklərin üsyanı”, “Pinqvinlər adası” və s.

**12 oktyabr 1935** – İtalyan opera müğənnisi Luçano Pavarotti (Luciano Pavarotti; 1935 – 6.9.2007) anadan olub.

**13 oktyabr 1934** – Rus aktyoru Saveli Kramarov (1934–1995) anadan olub. Filmləri: “Uğur centlmenləri”, “Ələkeçməz qisasçılar”, “İvan Vasilyeviç peşəsini dəyişir” və s.

**13 oktyabr 1933** – SSRİ Xalq artisti, tanınmış teatr və kino rejissoru, Dövlət mükafatları laureatı Mark Zaxarov (1933 – 28.9.2019) anadan olub.

**14 oktyabr 1864** – Polyak yazıçısı Stefan Jeromski (Stefan Zeromski; 1864–1925) anadan olub. “Kül”, “Həyatın bəzəyi”, “Dənizdən külək”, “Günahın tarixi” və s. romanların müəllifidir.

**15 oktyabr 1814** – Rus şairi, yazıçı, dramaturq Mixail Yuryeviç Lermontov (1814 – 27.7.1841) anadan olub. Əsərləri: “Zəmanəmizin qəhrəmanı” (roman), “Mtsıri”, “Hacı Abrek”, “Qafqaz əsiri” (poema), “Maskarad” (pyes) və s. Azərbaycanda olub, “Aşıq Qərib” dastanını qələmə alıb.

**15 oktyabr 1844** – Alman filosofu Fridrix Nitsşe (Friedrich Wilhelm Nietzsche; 1844 – 25.8.1900) anadan olub. Dünya fəlsəfi fikrinə güclü təsir edən əsərlərin müəllifidir: “Faciənin doğuluşu”, “Zərdüşt belə deyirdi”, “Xeyir və şərdən o yana”, “Bütlərin qürubu” və s.

**15 oktyabr 1929** – Serb şairi, yazıçı, tərcüməçi Milorad Paviç (1929–2009) anadan olub. Xəzər xaqanlığından (VIII–IX əsrlər) bəhs edən “Xəzər lüğəti” tarixi-ensiklopedik romanının müəllifidir.

**Hazırladı: V.Orxan**

# "Uçan xalçalar" Estoniya paytaxtında

Azərbaycan xalçaçılıq sənəti və məktəblərinin Avropada tanıdılması məqsədilə "Azərxalça" ASC tərəfindən Estoniyanın paytaxtı Tallinn şəhərindəki "Hopneri Maya" muzeyində sərgi təşkil edilib.



Açılış mərasimində Azərbaycanın Estoniyadakı səfiri Anar Məhərrəmov və "Azərxalça" ASC-nin sədri Əməkdar incəsənət xadimi Emin Məmmədov çıxış ediblər.

Səfir sərginin iki ölkə arasında mədəni əlaqələrin inkişafına xidmət edəcəyini deyib. O, ümidvar olduğunu bildirib ki, eston ziyarətçiləri ölkəmizin mədəni irsinin mühüm istiqaməti kimi xalçaçılıq sənəti ilə yaxından tanış olacaqlar.

Emin Məmmədov qeyd edib ki, ASC-nin yerli və xarici rəssamlarla, eləcə də dizaynerlərlə əməkdaşlığı çərçivəsində ənənəvi xalçalara istinadla müasir xalçalar yaradılır və beləliklə, bu sənət inkişaf edir.

"Hopneri Maya" muzeyinin rəhbəri xanım Katrin Tuuksam Azərbaycan xalçalarının burada ilk dəfə sərgilənməsini Estoniyanın mədəni həyatında əlamətdar hadisə kimi qiymətləndirib.

Sərginin ziyarətçilərinə iki xalça kolleksiyasından nümunələr təqdim olunub. Onlar klassik Qarabağ xalçasının toxunmasını da izləyiblər.

Qeyd olunub ki, "Uçan xalçalar" kolleksiyasına müxtəlif ölçülü, fərqli xalçaçılıq məktəblərinə aid həm müasir, həm də klassik üslubda toxunmuş on bir yun xalça daxildir. Kolleksiya bundan əvvəl Strasburq, Brüssel, Berlin, Madrid, Vyana, Riqa və 2024-cü il Avropanın mədəniyyət paytaxtı Liepaya şəhərlərində muzeylərdə sərgilənib.

Kolleksiya 2021-ci ildə Vətən müharibəsinin birinci ildönümü və Azərbaycanın ənənəvi xalçaçılıq sənətinin UNESCO-nun "Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısı"na salınmasının (16 noyabr 2010-cu il) 11-ci ildönümü münasibətilə hazırlanıb.

Estoniya paytaxtında sərgi bir ay davam edəcək.

# Muzey Mərkəzində "Anadoludan əsintilər"





Muzey Mərkəzinin sərgi qalereyasında Türkiyənin SAKÜDER – Beynəlxalq Sənət və Sənətkarlar Topluluğu Mədəniyyət Dərnəyinin təşkilatçılığı ilə Türkiyə-Azərbaycan qardaşlığına həsr olunmuş növbəti "Anadoludan əsintilər" adlı sərgi açılıb.

Oktyabrın 4-də keçirilən açılış mərasimində SAKÜDER-in rəhbəri Əli Naki Əsər sərgi haqqında məlumat verib. "Məqsədimiz sənəti yaşatmaq üçün sənətkarları dəstəkləmək, mədəniyyətimizi gələcək nəsillərə ötürmək və cəmiyyətimizin güzgüsü olan rəssamlarımızı, onların əsərlərini ictimaiyyətə təqdim etməkdir. SAKÜDER rəssamın fırçası, yazıçının qələmi, musiqinin səsi, bir sözlə, sənətçinin səsi olmaq üçün var olmağa davam edəcək", – deyə o əlavə edib.

Sərgidə Azərbaycan və Türkiyə rəssamlarının – ümumilikdə 25 müəllifin 53 əsəri nümayiş olunur.

Onların arasında Xalq rəssamları Tofiq Ağababayev və Arif Hüseynov, Əməkdar incəsənət xadimi Çingiz Fərzəliyevin əsərləri, eləcə də Suğra Bağırzadə, İsa Məmmədov, Fikrət İbrahimli, Günəş Abbas, Bənövşə Ağayeva, Cəmilə Əkbərova, Fərəh Babayeva, Fatma Ulutan, Fatma Perihan Türkçü, Nuranə Babayeva, Nur Yıldırım, Sevda Rüstəmova, Sevinc Seles, Sibel Acar Kutlu və başqalarının əl işləri var.

Sərgi oktyabrın 13-dək davam edəcək.

# "Qladiator"un üçüncü filmi də çəkiləcək

Britaniya rejissoru Ridli Skot (Ridley Scott) dünya kinosunda iz qoymuş "Qladiator" filminin (2000) üçüncü hissəsini də çəkmək niyyətindədir.



"Total Film" jurnalının yazdığına görə, "Qladiator"un üçüncü filminin ssenari hazırlıqlarına başlanılıb. "Əlimdə artıq səkkiz səhifə var. Çox gözəl bir yolun başlanğıcı var, onu izləməliyəm", – deyə 87 yaşlı rejissor bildirib.

Qeyd edək ki, "Qladiator"un ikinci filminin çəkilişləri bu ilin yanvarında başa çatıb. İyul ayında "Qladiator 2"nin rəsmi treyleri nümayiş olunub. Ekran əsərinin dünya premyerası isə noyabrın 22-nə nəzərdə tutulub.

Layihənin aktyor heyətinə Pedro Paskal, Denzel Vaşinqton, Cozef Quinn, Konni Nilsen və başqaları daxildir. Yeni "Qladiator"un süjeti birinci hissənin bitməsindən 25 il sonra baş verən hadisələrdən bəhs edəcək.

Xatırladaq ki, tarixi dram janrında çəkilən "Qladiator"un birinci filmində hadisələr eramızdan əvvəl ikinci yüzillikdə Roma imperiyasında baş verir. Baş qəhrəman imperator Mark Avrelinin sevimli sərkərdəsi Maksimusdur. Aktyor Rassel Krounun (Russell Crowe) oynadığı qəhrəman filmin sonunda həlak olur.

"Qladiator" filmi ("Scott Free Productions" və "Red Wagon Entertainment" kino şirkətlərinin istehsalı) 2001-ci ildə beş nominasiyada (o cümlədən ən yaxşı film kimi və ən yaxşı kişi roluna görə) "Oskar" mükafatı qazanıb.

Xronoqraf

# Tarixdə bu gün



Olaylar, faktlar (11 – 15 oktyabr)

### 211 il əvvəl...

**12 oktyabr 1813-cü ildə** Rusiya ilə İran arasında müharibənin (1804-1813) başa çatması ilə bağlı Gülüstan sülh müqaviləsi imzalanıb. Qarabağın şimalında (indiki Goranboy rayonu) yerləşən Gülüstan kəndində bağlanan müqaviləyə əsasən, Azərbaycan torpaqları ikiyə bölünüb. Azərbaycanın Araz çayından şimaldakı torpaqları – Gəncə, Qarabağ, Şəki, Şamaxı, Quba, Bakı və Lənkəran xanlıqları Rusiya imperiyasının tərkibinə daxil edilib. Naxçıvan və İrəvan xanlıqları İranın nəzarətində qalıb. Sülh sənədini Rusiya tərəfdən çar I Aleksandrın səlahiyyətli nümayəndəsi general Nikolay Rtişşev, İran tərəfdən Fətəli şahın təmsilçisi Mirzə Əbülhəsən imzalamışdı.

### 144 il əvvəl...



**13 oktyabr 1880-ci ildə** Bakı-Sabunçu-Suraxanı xəttinin istifadəyə verilməsi ilə Azərbaycanda dəmir yolu nəqliyyatının əsası qoyulub. Prezident İlham Əliyevin 2005-ci ildə (7 oktyabr) imzaladığı sərəncamla 13 oktyabr Azərbaycanda "Dəmir yolu işçilərinin peşə bayramı günü" elan olunub.

### 103 il əvvəl...

**13 oktyabr 1921-ci ildə** Türkiyə, Rusiya və Cənubi Qafqazın üç sovet respublikası – Azərbaycan, Ermənistan və Gürcüstan arasında Qars müqaviləsi imzalanıb. Sənəddə 1921-ci ilin martında Rusiya ilə Türkiyə arasında bağlanmış Moskva müqaviləsinin Cənubi Qafqazla bağlı müddəaları dəqiqləşdirilib, Türkiyənin Azərbaycan, Ermənistan və Gürcüstanla sərhədləri müəyyənləşib. Sənəddə Naxçıvanın Azərbaycan ərazisi olduğu və Türkiyənin razılığı olmadan Naxçıvanın yurisdiksiyasının dəyişdirilməsinin yolverilməzliyi də təsbit edilib.

### 101 il əvvəl...



**13 oktyabr 1923-cü ildə** Ankara Türkiyənin yeni paytaxtı olub. 1920-ci ildə Türkiyə Böyük Millət Məclisinin toplandığı və Qurtuluş mübarizəsinin idarə olunduğu şəhər yeni Türkiyənin faktiki mərkəzi idi. Cümhuriyyətin elanı (29 oktyabr) ərəfəsində Mustafa Kamal Atatürkün təşəbbüsü ilə paytaxt İstanbuldan Ankaraya köçürüldü.

### 100 il əvvəl...

**12 oktyabr 1924-cü ildə** Ukrayna SSR tərkibində Moldaviya Muxtar Sovet Sosialist Respublikası təşkil olunub. 1940-cı ildə Sovet İttifaqı tərəfindən Bessarabiya Rumıniyadan qoparıldı və bu bölgənin Moldaviya MSSR-lə birləşdirilməsi nəticəsində Moldaviya SSR (2 avqust 1940) – indiki Moldova Respublikası yaradıldı.

***

**14 oktyabr 1924-cü ildə** SSRİ Mərkəzi İcraiyyə Komitəsinin Mərkəzi Asiyada milli-ərazi bölgüsü ilə bağlı müvafiq qərarından sonra RSFSR tərkibində Qara-Qırğız Muxtar Vilayəti yaradılıb. Muxtar vilayət 2 il sonra muxtar respublikaya, 1936-cı ildə isə Qırğızıstan SSR-ə çevrildi. Eyni gündə Özbəkistan SSR tərkibində Tacikistan MSSR yaradılıb. 1929-cu ildə muxtar respublika Tacikistan SSR-ə çevrildi.

### 21 il əvvəl...

**15 oktyabr 2003-cü ildə** Azərbaycanda növbəti prezident seçkiləri keçirilib. MSK-nın məlumatına görə, səsvermədə seçicilərin 71 faizi iştirak etmişdi. Baş nazir İlham Əliyev 76,84 faiz səs qazanaraq Azərbaycanın yeni Prezidenti seçildi.

### 12 il əvvəl...

**11 oktyabr 2012-ci ildə** BMT-də "Beynəlxalq Qız Uşaqları Günü" haqqında qətnamə qəbul olunub. Bu gün çərçivəsində dünya qız uşaqlarının təhsil hüququ, onlara qarşı cinsi ayrı-seçkilik, zorakılıq və məcburi evlilik kimi məsələlər gündəmə gətirilir.

**Hazırladı: V.Orxan**

# İncəsənət ustalarımız Pakistanda festivala qatılıblar

26 sentyabr – 30 oktyabr tarixlərində Pakistanın Karaçi şəhərində ilk dəfə Dünya Mədəniyyət Festivalı keçirilir.



"Art Council Pakistan"ın təşkilatçılığı ilə "Sərhədsiz dünyanı yaşayın" devizi altında reallaşan festivala ABŞ, Fransa, İspaniya, İtaliya, Ukrayna – ümumilikdə 40 ölkədən 450-dən çox sənətçi qatılıb.

Zəngin proqramı olan festival çərçivəsində konsertlər təşkil edilir, teatr tamaşaları, sərgilər nümayiş etdirilir, eyni zamanda sənətin müxtəlif sahələri ilə bağlı seminar, ustad dərsləri keçirilir.

Festivalda ölkəmizi Əməkdar artistlər – Beynəlxalq Muğam Mərkəzinin direktoru tarzən Sahib Paşazadə və mərkəzin solisti, nağara ifaçısı Kamran Kərimov təmsil edib. Musiqiçilərimiz festivala "Art Council Pakistan"ın dəvəti ilə iştirak ediblər.

Açılış günü ifaçılarımız maraqlı proqramla səhnəyə çıxıblar. Onlar sentyabrın 28-də Karaçidəki İncəsənət Universitetində milli musiqi alətlərimizlə bağlı ustad dərsi də keçiblər. Sənətçilərimizin ifasında konsert proqramı alqışlarla qarşılanıb. Proqramda Azərbaycan muğamları, digər musiqi nümunələri ilə yanaşı, Pakistanın görkəmli musiqiçisi Nüsrət Fateh Ali Xanın məşhur "Qavvali" əsəri də səslənib.

# Qazaxlar türkmən elindədir

Aşqabadda Qazaxıstanın mədəniyyət həftəsi keçirilir. Proqrama yaradıcılıq görüşləri, sərgilər, film nümayişləri, estrada artistlərinin çıxışları və möhtəşəm qala-konsert daxildir.





Həftənin açılışında (8 oktyabr) Qazaxıstan ifaçıları zəngin konsert proqramı ilə çıxış ediblər. Aşqabadlılar qazax xalq rəqslərini seyr edib, klassik musiqi nümunələrini və müasir estrada kompozisiyalarını dinləyiblər. İlk gün virtuoz çıxışlarla zəngin caz axşamı ilə başa çatıb.

Qazaxıstan Respublikasının Türkmənistandakı səfiri Nurlan Noqayev mədəniyyət günlərinin iki qardaş xalq arasında münasibətlərə mühüm töhfə olacağını deyib: "Qazaxıstan ölkələrimiz arasındakı mövcud münasibətləri yüksək qiymətləndirir və onların gələcəkdə də qarşılıqlı faydalı olmasından ötrü səylərini əsirgəməyəcək".

# Rabat "Dünya kitab paytaxtı" olacaq

UNESCO-nun baş direktoru Odri Azule Dünya Kitab Paytaxtı Məşvərət Komitəsinin tövsiyəsi əsasında Mərakeşin Rabat şəhərinin 2026-cı il üçün "Dünya kitab paytaxtı" seçildiyini elan edib.

Rabat bu missiyanı 2025-ci ildə "Dünya kitab paytaxtı" olacaq Rio-de-Janeyrodan (Braziliya) təhvil alacaq.

"Rabat kitabların bütün müxtəlifliyi ilə bilik və incəsənət mübadiləsinə kömək edən mədəniyyət mərkəzidir. Artan yerli kitab sənayesi də təhsilin inkişafında mühüm rol oynayır. Bu fəaliyyətlər UNESCO-nun mandatına uyğun həyata keçirilir", – deyə Odri Azule bildirib.

UNESCO-nun "Dünya kitab paytaxtı"nın yeni nominantı barədə məlumatında diqqətə çatdırılır ki, Rabatda 54 nəşriyyat, Afrikada üçüncü ən böyük beynəlxalq kitab və nəşriyyat yarmarkası və getdikcə sayı artan kitab mağazaları var. Bu şəhərin kitab sənayesi təkcə yaradıcı iqtisadiyyatın mühüm hissəsi deyil, həm də biliyin dərinləşdirilməsinə töhfədir.

UNESCO və Dünya Kitab Paytaxtı Məşvərət Komitəsi Rabatı ədəbi inkişafa, mütaliə vasitəsilə qadınların və gənclərin səlahiyyətlərinin artırılmasına, savadsızlıqla mübarizəyə, xüsusən də icmalar arasında aydın öhdəliyinə görə bu titula layiq görüb.

Tədbirlərin açılışı 2026-cı il aprelin 23-də – Dünya Kitab və Müəllif Hüquqları Günündə olacaq.

Qeyd edək ki, UNESCO-nun "Dünya kitab paytaxtı" (World Book Capital) proqramı 2001-ci ildən həyata keçirilir. İlk dəfə bu adı Madrid (İspaniya) daşıyıb. 2024-cü ilin "Dünya kitab paytaxtı" Fransanın Strasburq şəhəridir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiymәti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 2358
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641